# ELM

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin orqanı

Qüvvət elmdədir...

Nizami Gəncəvi

НАУКА

Орган Президиума Национальной академии наук Азербайджана

SCIENCE

Newspaper of the Presidium of the Azerbaijan National Academy of Sciences

№ 12 (1409) ❖ Cümə, 5 aprel 2024-cü il ❖ Qəzet 1984-cü ildən nəşr olunur



# Konqo Prezidenti Deni Sassu-Nqesso Azərbaycana rəsmi səfərə gəlib

**Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqesso aprelin 3-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.**

Həmin gün Prezident Deni Sassu-Nqesso Fəxri xiyabanda xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyub. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə tər çiçəklər düzülüb.

Sonra Prezident Deni Sassu-Nqesso Şəhidlər xiyabanını ziyarət edib, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Aprelin 4-də Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqessonun rəsmi qarşılanma mərasimi olub. Azərbaycan Prezidenti İlham Əliyev Konqo Prezidenti Deni Sassu-Nqessonu qarşılayıb.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçiblər və hər iki ölkənin Dövlət himnləri səsləndirilib.

Həmin gün Prezident İlham Əliyevin Prezident Deni Sassu-Nqesso ilə təkbətək görüşü olub. Sonra isə prezidentlərin geniş tərkibdə görüşü keçirilib.

Görüşdə çıxış edən Prezident İlham Əliyev Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqessonun ölkəmizə səfərinin böyük əhəmiyyət daşıdığını, təkbətək görüşdə bir çox məsələlərin müzakirə edildiyini deyib: "Biz bu gün siyasi, iqtisadi, investisiya, energetika və digər sahələrdə mümkün olan əməkdaşlıq haqqında danışmışıq. Müzakirə olunan bütün məsələlərlə bağlı bizim fikrimiz üst-üstə düşür. Təbii ki, səfəriniz bizim gələcək əməkdaşlığımıza da çox müsbət təsir göstərəcəkdir. Bizim siyasi əlaqələrimiz daha da möhkəmlənəcək. Ümid edirəm ki, səfərdən sonra əldə edilmiş razılaşmaların icrası nəticəsində ticarət dövriyyəsində müsbət dinamika yaranacaq".

Dövlətimizin başçısı energetika və kənd təsərrüfatı sektorlarında da əməkdaşlıqla bağlı geniş fikir mübadiləsinin aparıldığını bildirib, COP29-la bağlı birgə işləməyə hazır olduğumuzu vurğulayıb.

"Bu gün, eyni zamanda, təhsil, mədəniyyət və digər sahələrdəki əməkdaşlıq imkanlarını da müzakirə etdik və apardığımız bütün müzakirələr bir daha göstərir ki, bizim vahid mövqeyimiz bu məsələ ilə bağlı vardır. Əminəm ki, bu gün imzalanacaq sənədlər və əldə edilmiş razılaşmalar bizim əməkdaşlığımızı böyük dərəcədə gücləndirəcək", – deyə Prezident İlham Əliyev qeyd edib.

Sonra Konqo Respublikasının Prezidenti Deni Sassu-Nqesso çıxış edərək, ölkələrimiz arasında çox böyük potensialın olduğunu və bizim əhalimiz üçün inkişafa töhfə verə biləcəyini deyib: "Ölkəmizin çox böyük kənd təsərrüfatı potensialı var və biz əkin sahələrinin bəlkə də cəmi 3 faizini istifadə edirik, bu da o deməkdir ki, yerdə qalan hamısı istifadə üçün hazırdır. Bizim bol su mənbələrimiz və bütün ilboyu şəfəq saçan Günəşimiz var. Biz bu potensialdan və sizin bu sahədəki böyük təcrübənizdən kənd təsərrüfatımızın inkişafı üçün istifadə edə bilərik. Məsələn, biz Konqoda məhsul istehsal edə və sonra onu ixrac edə bilərik. Bərpaolunan enerji sahəsində də bizim çox böyük potensialımız var, bütün ilboyu Günəşimiz var və Azərbaycanın bu sahədəki zəngin təcrübəsindən yararlana bilərik".

Prezident İlham Əliyevin və Prezident Deni Sassu-Nqessonun iştirakı ilə Azərbaycan-Konqo sənədlərinin imzalanması mərasimi də olub.

Dövlət başçıları "Azərbaycan Respublikası və Konqo Respublikası arasında əməkdaşlıq haqqında Bəyannamə"ni imzalayıblar.

Daha sonra "Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Konqo Milli Neft Şirkəti arasında təlim haqqında Anlaşma Memorandumu", "Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə Konqo Milli Neft Şirkəti arasında "Congolaise de Raffinage" neft emalı zavodunun təkmilləşdirilməsi və genişləndirilməsi haqqında Şərtlər Razılığı", "Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Konqo Respublikasının Ətraf Mühit, Davamlı İnkişaf və Konqo Hövzəsi Nazirliyi arasında ətraf mühit, təbii sərvətlərin davamlı idarə olunması və iqlim dəyişmələri üzrə əməkdaşlıq sahəsində Niyyət Protokolu" imzalanıb.

Həmin gün Prezident İlham Əliyev və Prezident Deni Sassu-Nqesso mətbuata bəyanatlarla çıxış ediblər.

Dövlətimizin başçısı səmimi salamlamadan sonra bəyanatında Konqo Respublikasının Prezidentinin Azərbaycana rəsmi səfərinin ilk dəfə olduğunu qeyd edərək, bunu tarixi səfər kimi qiymətləndirib, Konqo ilə Azərbaycan arasında güclü dostluq əlaqələrinin yaradılacağına əminliyini ifadə edib: "Bizim siyasi əlaqələrimizin bundan sonra uğurla inkişaf edəcəyinə dair heç kimdə şübhə yoxdur və bu gün imzalanmış əməkdaşlıq haqqında Bəyannamə bunu bir daha təsdiq edir. Biz bundan sonra da beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstək əsasında qarşılıqlı fəaliyyətimizi davam etdirəcəyik, xüsusilə BMT-də və Qoşulmama Hərəkatı çərçivəsində. Qoşulmama Hərəkatına bu ilin yanvar ayına qədər 4 il uğurla sədrlik etmiş Azərbaycan Konqonun dəstəyini hər zaman hiss etmişdir. Bizim təşəbbüslərimizə Konqo hər zaman öz dəstəyini vermişdir və bunun nəticəsində sədrliyimiz dövründə Qoşulmama Hərəkatının institusional inkişafı da təmin edilmişdir. Parlament Şəbəkəsi, Gənclər və Qadınlar platformaları məhz sədrliyimiz dönəmində yaradılmışdır. Bu gün Qoşulmama Hərəkatı əvvəlki dövrlərə nisbətən daha güclü təşkilatdır. Bu təşkilatın dünya miqyasında və dünyada gedən proseslərdə oynadığı rolunun artırılması hesab edirəm ki, hamımızın marağındadır".

Prezident İlham Əliyev qeyd edib ki, Qoşulmama Hərəkatına sədrlik dövründə bizim prioritetlərimizin içində neokolonializmə qarşı mübarizə məsələləri durmuşdur, bu gün də bu belədir və bizim xarici siyasət istiqamətləri arasında bu sahə xüsusi önəm daşıyır: "Bir müddət bundan əvvəl Azərbaycanda Bakı Təşəbbüs Qrupu yaradılmışdır. Bu, beynəlxalq qurumdur. Bu qurumun əsas məqsədi kolonializmin, yəni müstəmləkəçiliyin yeni təzahürlərinə qarşı mübarizə aparmaq və bu gün müstəmləkəçilikdən əziyyət çəkən xalqları dəstəkləmək, o xalqların hüquqi əsaslar üzərində azadlığa qovuşmasını təmin etməkdir. Bakı Təşəbbüs Qrupu bu gün dünya miqyasında böyük hörmətə malik olan qurumdur və yenə də deyirəm ki, bu qurumun nəticələri göz qabağındadır".

Dövlətimizin başçısı iqtisadi sahədə də əməkdaşlıq haqqında geniş fikir mübadiləsi aparıldığını, kənd təsərrüfatı, bərpaolunan enerji, energetika, mədənçilik və digər sahələrdə əməkdaşlıq üçün çox gözəl perspektivlər olduğunu söyləyib: "Azərbaycan COP29-un prezidenti kimi bu tədbirə çox ciddi hazırlaşır və burada Konqo ilə ikitərəfli formatda və çoxtərəfli formatda əməkdaşlıq etmək hesab edirəm ki, məqsədəmüvafiq ola bilər".

Sonra Konqo Respublikasının Prezidenti bəyanatla çıxış edərək, gələcək əməkdaşlıq məsələlərinə toxunub. Karbohidrogen, kənd təsərrüfatı, mədənçilik, informasiya, bərpaolunan enerji sahələrində iki ölkənin mühüm potensialının olduğu qeyd edib. Bildirib ki, imzalanan Bəyannamə mühüm mərhələdir və bu, gələcək aylarda və illərdə ölkələrimiz arasında bütün sahələrdə fəaliyyəti istiqamətləndirəcək.

Həmin gün Azərbaycan Prezidentinin adından Konqo Prezidentinin şərəfinə rəsmi nahar verilib.

# AMEA-nın prezidenti akademik İsa Həbibbəylinin Ramazan bayramı münasibətilə Akademiya əməkdaşlarına təbriki

**Hörmətli həmkarlar!**

Sizi İslam aləminin müqəddəs Ramazan bayramı münasibətilə səmimi qəlbdən təbrik edir, tutduğunuz orucların, etdiyiniz ibadətlərin uca Allahdan qəbul olunmasını diləyirəm.

Daim bəşəriyyəti sülhə, tolerantlığa, humanizmə, yüksək mənəvi əxlaqa, xeyir əməllərə çağıran İslam dininin müqəddəs kitabı Qurani-Kərim bəşəriyyətə məhz Ramazan ayında nazil olmuşdur. İnsanın iradəsinin sınandığı bu müqəddəs ay hər kəsi xeyir işlər görməyə, yardıma ehtiyacı olanlara əl tutmağa, başqalarının dərdlərinə şərik olub kömək etməyə səsləyir.

İslam dininin müqəddəs dəyərləri, o cümlədən Ramazan bayramı da əsrlər boyu xalqımız tərəfindən ölkəmizdə yaşadılmaqdadır. Xüsusilə sovet hakimiyyətinin ən sərt illərində belə xalqımız İslam dininə, onun tarixi dəyərlərinə olan bağlılığını bütün çətinliklərə baxmayaraq qoruyub saxlamışdır. Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsindən sonra isə ölkəmizdə din və vicdan azadlığı bərqərar olmuş, hər kəsin öz dininə etiqad etmək hüququ verilmişdir ki, bu gün Azərbaycan dünyada multikulturalizmin mərkəzlərindən biri kimi tanınır.

Prezident İlham Əliyevin İslam Əməkdaşlıq Təşkilatının rəsmi mətbuat orqanı olan "OIC Journal" jurnalında 2017-ci ildə işıq üzü görmüş "İslam həmrəyliyinin gücləndirilməsi zamanın çağırışıdır" sərlövhəli məqaləsində qeyd etdiyi kimi - "Biz Azərbaycanda mədəni müxtəlifliyin, etnik və dini tolerantlıq mühitinin təmin olunmasını böyük nailiyyət hesab edirik. Ölkəmizdə heç vaxt dini və milli ayrıseçkilik olmamış, bütün dinlərin nümayəndələri dinc və qarşılıqlı anlaşma şəraitində yaşamışlar. Bu, bizim həyat tərzimizdir".

Ötən illər ərzində ölkəmizdə bir çox dini abidələr, məscidlər, ibadətgahlar bərpa olunub və bu proses hazırda işğaldan azad olunmuş ərazilərdə də Heydər Əliyev Fondu tərəfindən sürətlə həyata keçirilir.

Azərbaycan, həmçinin dünyada İslam dəyərlərinin təbliğində mühüm rol oynayır, islamofobiyaya qarşı açıq şəkildə mübarizə aparır, mədəniyyətlərarası dialoqun gücləndirilməsi üçün beynəlxalq forumlar keçirir.

Dəyərli Akademiya əməkdaşları, sizi bir daha Ramazan bayramı münasibətilə təbrik edir, cansağlığı və elmi-tədqiqat işlərinizdə uğurlar arzulayıram.

Hörmətlə,

***İsa HƏBİBBƏYLİ***
***Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik***

# "Yeni tarixi dövr və milli ideya" mövzusunda növbəti müzakirə



















**Azərbaycan Milli Elmlər Akademiyasında "Yeni tarixi dövr və milli ideya" mövzusunda ikinci müzakirə keçirilib.**

Tədbirdə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, AMEA elmi müəssisələrinin direktorları, Rəyasət Heyəti aparatının şöbə müdirləri və məsul əməkdaşları, Humanitar və İctimai elmləri təmsil edən alimlər və gənc mütəxəssislər iştirak ediblər.

Müzakirələri giriş sözü ilə açan **akademik İsa Həbibbəyli** Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 10 yanvar 2024-cü ildə yerli televiziya kanallarına müsahibəsi zamanı səsləndirdiyi "Bizim gələcək inkişafımızla bağlı əsas milli ideya və ideyalarımız nə olmalıdır", - sözlərini xatırladıb və bundan irəli gələrək yanvar ayında bu istiqamətdə ilkin müzakirələrin keçirildiyini xatırladıb. Qeyd edib ki, həmin müzakirələr zamanı Humanitar və İctimai elmləri təmsil edən 16 nüfuzlu alim mövzu barədə fikirlərini bildirərək bu istiqamətində 37 təklif səsləndiriblər.

Akademik İsa Həbibbəyli bildirib ki, ideologiya ilə ideya bir-birinə yaxın olan anlayışlardır və dövlətimizin əsas ideologiyası Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş Azərbaycançılıq ideologiyasıdır və səsləndirilən təkliflərdə də gələcək milli ideyanın baza hissəsini bu ideologiya təşkil edir.

Alimlərimiz tərəfindən ilkin müzakirələr zamanı Güclü lider, güclü dövlət, güclü xalq, Böyük Qayıdış kimi milli ideya ola biləcək təkliflər səsləndirilib. Biz, həmçinin milli ideyanın nə demək olmasını müəyyənləşdirərkən onun ifadə formatını da tapmalıyıq. Yəni qardaş Türkiyəyə münasibətdə Ulu Öndərin "Bir millət, iki dövlət" sözlərini, yaxud Vətən müharibəsində dövlət başçısının ümummilli şüara çevrilmiş "Qarabağ Azərbaycandır!" nidasını qəbul etdiyimiz kimi, yeni milli ideyamız da müəyyən formata, modelə əsaslanmalıdır", - deyə akademik İsa Həbibbəyli söyləyib.

AMEA rəhbəri, o cümlədən Prezident İlham Əliyevin fevralın 14-də Andiçmə mərasimindəki nitqində səsləndirdiyi fikirlərin milli ideyamızın müəyyənləşdirilməsi üçün mühüm yol xəritəsi olduğunu deyib.

Diqqətə çatdırıb ki, artıq Akademiyada azərbaycançılıq və ümummilli ideyalar əsasında metodoloji tədqiqatların aparılmasına başlanılıb. Azərbaycan tarixinin, ədəbiyyatının, incəsənətinin dövrləşdirilməsi və inkişaf konsepsiyasının, eləcə də milli fəlsəfəmizin müəyyənləşdirilməsi istiqamətində mühüm addımlar atılıb. Həmçinin bildirib ki, AMEA-da həyata keçirilən tədqiqatlar Prezident İlham Əliyevin müəyyən etdiyi inkişaf strategiyası və milli prioritetlərə əsaslanır.

Ali Baş Komandan İlham Əliyevin liderliyində Vətən müharibəsində və bir günlük antiterror tədbirləri zamanı qazanılan tarixi Qələbə ilə ərazi bütövlüyümüzün tam bərpa edildiyini deyən AMEA rəhbəri dövlət başçısı tərəfindən Xankəndi və digər işğaldan azad olunmuş ərazilərdə Dövlət Bayrağımızın ucaldılmasının böyük tarixi nailiyyət olduğunu söyləyib.

Artıq Azərbaycanda dövlət başçısının müsahibəsində qeyd etdiyi yeni tarixi dövrünün başlandığını bildirən akademik İsa Həbibbəyli ötən müddət ərzində ölkəmizdə Prezident seçkilərinin keçirildiyini və İlham Əliyevin yekdilliklə Azərbaycan Respublikasının Prezidenti seçildiyini, o cümlədən dövlətimiz tərəfindən beynəlxalq müstəvidə yeni tarixi dövrün ideyalarına uyğun addımların atıldığını deyib.

Akademik İsa Həbibbəyli müstəqil Azərbaycan dövlətinin bundan sonrakı tarixi dövr üçün milli ideyasının müəyyənləşdirilməsinin alimlərimizin başlıca vəzifəsi olduğunu diqqətə çatdırıb.

İctimai müzakirələrdə çıxış edən **AMEA-nın vitse-prezidenti v.i.e. akademik Gövhər Baxşəliyeva** vurğulayıb ki, milli birlik, güclü, müasir, dünyəvi, demokratik dövlət quruculuğu məsələləri bizim milli ideyamızın əsasını təşkil etməlidir, biz dünyəviliyimizi qorumalıyıq.

Memarlıq və İncəsənət İnstitutunun direktoru **AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə** çıxışında bildirib ki, milli ideyanın əsasını Azərbaycan cəmiyyətinin gələcəkdə nə arzuladığını müəyyən etmək təşkil edir və bu isə özlüyündə "milli arzu" anlayışını formalaşdırdığından sosioloji tədqiqatların aparılmasına ehtiyac yaranır.

Qafqazşünaslıq İnstitutunun direktoru **AMEA-nın müxbir üzvü Musa Qasımlı** isə qeyd edib ki, Azərbaycançılıq ölkəmizin təməl ideologiyasıdır və milli birlik və həmrəyləyimizin təməlidir. Onun sözlərinə görə, milli ideya müəyyən dövr üçün zəruri şəraitdən yaranır və millətin arzusundan, istəyindən irəli gəlir. O qeyd edib ki, milli-mənəvi köklərimizə dayanaraq modernləşməli, elm və təhsili müasir səviyyəyə qaldırmalıyıq.

Sonra çıxış edən **AMEA-nın Tarix və Etnologiya İnstitutunun direktoru professor Kərim Şükürov** bildirib ki, Azərbaycanda milli ideyanın tarixi və spesifikası dinamik xarakter daşıyıb və hər dövrdə fərqli olub. Alim vurğulayıb ki, güclü Azərbaycan ailəsi güclü dövlətin təməlləri təşkil edir və buna daim xüsusi diqqət yetirmək lazımdır.

İctimai müzakirələrdə **akademiklər Möhsün Nağısoylu, Teymur Kərimli, Muxtar İmanov, professorlar İlham Məmmədzadə, Əbülhəsən Abbasov, tarix elmləri doktorları Eynulla Mədətli, Güllü Yoloğlu, fəlsəfə elmləri doktoru Füzuli Qurbanov, Şərqşünaslıq İnstitutu Gənc Alim və Mütəxəssislər Şurasının sədri fəlsəfə üzrə fəlsəfə doktoru Elnur Mustafayev, fəlsəfə üzrə fəlsəfə doktoru Şölət Zeynalov** və başqaları çıxış edərək Azərbaycanın yeni tarixi dövr üçün yeni milli ideyası ilə bağlı təklif və mülahizələrini səsləndiriblər.

Sonda çıxış edən akademik İsa Həbibbəyli müzakirələr zamanı səsləndirilən güclü lider, güclü dövlət, milli birlik, Böyük Qayıdış, inkişaf etmiş dövlət, sosial rifah və türk birliyi kimi ideyaları ümumiləşdirib, yeni tarixi dövr üçün milli ideya baxımından səsləndirilən təkliflərin sırasına rəqəmsal cəmiyyət quruculuğu və milli təhlükəsizlik məsələlərini də əlavə etməyi və bu ideyaların əsasında ortaq modellərin formalaşdırılmasının məqsədəuyğun olduğunu nəzərə çatdırıb.

Qeyd olunub ki, yeni tarixi dövrdə milli ideya axtarışları sahəsində aparılan müzakirələr Akademiyada ictimai və humanitar elmlərin inkişafına təkan verib, geniş meydan açıb.

İclasda müzakirələrin davam etdirilməsi qərara alınıb.

# AMEA üzvlərinə “Heydər Əliyevin 100 illiyi (1923-2023)” yubiley medalı təqdim olunub

## *Akademiya əməkdaşlarına AMEA-nın Fəxri fərmanları və bir sıra nominasiyalar üzrə mükafatlar da verilib*





















**Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin növbəti iclası keçirilib.**

Tədbirdə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, Rəyasət Heyətinin üzvləri, AMEA-nın həqiqi və müxbir üzvləri, Rəyasət Heyəti aparatının şöbə müdirləri, gənc alimlər və aidiyyəti şəxslər iştirak ediblər.

İclası giriş sözü ilə akademik İsa Həbibbəyli açaraq tədbirin gündəliyi barədə məlumat verib.

Əvvəlcə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2 fevral 2024-cü il tarixli Sərəncamına əsasən “Heydər Əliyevin 100 illiyi (1923-2023)” yubiley medalı ilə təltif edilmiş AMEA üzvlərinə yubiley medalları təqdim olunub. Həmçinin 27 mart - Elm Günü münasibətilə bir qrup Akademiya əməkdaşlarına Azərbaycan Respublikası Ağsaqqallar Şurasının, eləcə də AMEA-nın Fəxri fərmanları, “İstinadda rekord” diplomları, AMEA-nın Fəxri diplomları, AMEA-nın Təşəkkürnamələri və AMEA-nın “İlin gənc alimi” diplomları təqdim olunub.

Akademik İsa Həbibbəyli AMEA-nın çoxminlik kollektivi adından alimlərimizi “Heydər Əliyevin 100 illiyi (1923-2023)” yubiley medalı ilə təltif etdiyi üçün Prezident İlham Əliyevə dərin minnətdarlığını bildirib.

Daha sonra akademik İsa Həbibbəylinin “AMEA-da çoxcildli nəşrlər: mövcud ənənə və müasirlik” mövzusunda məruzəsi dinlənilib.

Akademik İsa Həbibbəyli bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin “Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında” 28 iyul 2022-ci il tarixli Fərmanı ilə yeni inkişaf mərhələsinə qədəm qoymuş AMEA-da son bir ildə çoxşaxəli islahatlar həyata keçirilməkdədir. AMEA rəhbəri vurğulayıb ki, bu islahatlar elmi infrastrukturun modernləşdirilməsi, struktur dəyişiklikləri, elmi prioritetlərin ölkənin sosial-iqtisadi, mədəni-mənəvi, ideoloji tələblərinə, o cümlədən, müasir dünyanın elmi-texnoloji çağırışlarına uyğunlaşdırılması, çevik və innovativ modellərin, o cümlədən rəqəmsal texnologiyaların tətbiqi ilə elmi idarəetmənin təkmilləşdirilməsi məqsədini daşıyır. Həmçinin elektron elmin inkişafı, beynəlxalq elmi mühitə, nüfuzlu elmi qurumlara və bazalara inteqrasiyanın sürətləndirilməsi, türk ölkələrinin elmi qurumları ilə əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi, elmi fəaliyyətin yeni elmmetrik meyarlar əsasında qiymətləndirilməsi və stimullaşdırılması, yüksəkixtisaslı kadr hazırlığına beynəlxalq təcrübənin tətbiqi, elmin cəmiyyətdə nüfuzunun yüksəldilməsi və s. istiqamətləri əhatə edir.

“AMEA-da həyata keçirilən islahatlar içərisində elmin informasiya təminatının gücləndirilməsi, bu məqsədlə elmi nəşr işinin məzmun və poliqrafik baxımdan müasir tələblər səviyyəsinə yüksəldilməsi əsas istiqamətlərdən birini təşkil edir. Elmi nəşrlərin hazırlanması həm Azərbaycan elminin dünya elminə inteqrasiyası, həm də Azərbaycanın qədim və zəngin tarixi, mədəniyyəti, ədəbiyyatı, müasir inkişaf səviyyəsi və potensialı haqqında əsaslandırılmış məlumatların dünyaya çatdırılması baxımından son dərəcə əhəmiyyətlidir. Digər tərəfdən, hər bir elmi nəşr, onu nəşr edən elmi müəssisənin dövlət və cəmiyyət qarşısında hesabatıdır və həmin müəssisənin elmi kadr potensialını, elmi tədqiqatlarının səviyyəsini əks etdirir”, - deyə AMEA prezidenti qeyd edib.Məruzəçi vurğulayıb ki, Akademiya təsis edildiyi vaxtdan onun çoxsaylı elmi və elmi-populyar nəşrləri - monoqrafiyalar, elmi məcmuələr, lüğətlər, klassiklərin çoxcildlik əsərləri, toplular, elmi-kütləvi kitabçalar, soraq kitabçaları, biblioqrafik ədəbiyyat və s. xalqımızın elmi potensialının təbliğində, onun geniş oxucu kütləsinə çatdırılmasında, son nəticədə xalqımızın mədəni-mənəvi və intellektual inkişafında olduqca mühüm rol oynayıb və bu proses bu gün də uğurla davam etməkdədir.

AMEA rəhbəri bildirib ki, bütün bunlarla yanaşı, son illər dövlətin elm qarşısında qoyduğu yeni vəzifələr, müasir dünyanın çağırışları, İKT-nin sürətli inkişafı, bununla əlaqədar dünyada nəşriyyat işi sahəsində, xüsusilə elmi nəşrlərin hazırlanması və yayımında baş verən yeniliklər bu sahədə fəaliyyətin günün tələbləri səviyyəsində qurulmasına, bu sahədə kompleks tədbirlərin həyata keçirilməsinə böyük zərurət yaradıb.

Akademik İsa Həbibbəyli diqqətə çatdırıb ki, AMEA-nın elmi müəssisələrində müxtəlif elmi məsələlərə həsr olunmuş və ölkənin sosial-iqtisadi, mədəni-mənəvi, ideoloji tələblərinə və müasir dünyanın çağırışlarına uyğun olaraq hazırlanmış çoxcildli nəşrlər istər elmin informasiya təminatının gücləndirilməsi, istərsə də elmin populyarlaşdırılması baxımından daha əhəmiyyətlidir: “Ona görə də AMEA-nın elmi müəssisələrində Azərbaycanın qədim tarixi və zəngin mədəniyyəti - Azərbaycan xalqının etnogenezisi, arxeologiyası, etnoqrafiyası, dili, folkloru, ədəbiyyatı, maddi və qeyri-maddi mədəni abidələri, qədim əlyazmaları, incəsənəti, milli-memarlıq üzrə elmi məktəbləri haqqında, eyni zamanda, yeni tələblərə uyğun olaraq yeni milli ideyanın müəyyənləşdirilməsi, yeni dövrləşdirilmə konsepsiyası əsasında Azərbaycan ədəbiyyatı tarixinin yazılması və müstəqillik dövrü Azərbaycan tarixinin hazırlanması, Azərbaycançılıq ideologiyasının və multikulturalizm konsepsiyasının elmi-nəzəri əsaslarının tədqiqi, fəlsəfə, sosiologiya, politologiya, psixologiya, o cümlədən şərqşünaslıq və qafqazşünaslıq sahəsində tədqiqatların aparılması ilə bağlı çoxcildli fundamental kitab və monoqrafiyaların hazırlanması müasir mərhələdə elmin əsas prioritet istiqamətləri olaraq müəyyənləşdirilib”.

Məruzə dinlənildikdən sonra mövzu ətrafında müzakirələr aparılıb.

Qeyd olunanları nəzərə alaraq və AMEA, onun Rəyasət Heyəti, elmi bölmələri, elmi müəssisə və təşkilatları adından istifadə edilməklə hazırlanan, çoxaldılan, kağız üzərində, İnternet məkanında və ya elektron daşıyıcılarda yayılan coxcildli elmi və elmi-populyar nəşrlərin həyata keçirilməsini təmin etmək məqsədilə qərarlar qəbul olunub.

Daha sonra bir sıra elmi-təşkilati məsələlər müzakirə edilib.

“Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinin qeyd edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 25 yanvar 2024-cü il tarixli Sərəncamının icrası ilə əlaqədar “Dahi Azərbaycan şairi Məhəmməd Füzuli müştərək müsəlman mədəniyyətinin yetirməsi kimi” və “Məhəmməd Füzuli və türk dünyası” mövzusunda beynəlxalq elmi konfransların keçirilməsi haqqında qərarlar qəbul edilib. Bundan əlavə, AMEA-nın Rəyasət Heyəti aparatının Sosial xidmətlər şöbəsinin Əsasnaməsinin təsdiq edilməsi, akademik Şirəli Məmmədovun 120 illik yubileyi, AMEA-nın Abbasqulu Ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Elmi şurasının yeni tərkibinin təsdiq edilməsi və həmin istitutun fəlsəfə doktoru hazırlığı üzrə (5507.01 - Beynəlxalq münasibətlər tarixi) II kurs əyani doktorantı Turan Qasımovanın öz ərizəsi əsasında əyani təhsildən qiyabi təhsilə keçirilməsi haqqında qərarlar verilib.

Sonda bir sıra kadr məsələlərinə baxılıb. Texnika üzrə fəlsəfə doktoru dosent Hüseyn Hüseynov AMEA-nın Mərkəzi Elmi Kitabxanasının direktoru, tarix elmləri doktoru İlqar Niftəliyev AMEA-nın Abbasqulu Ağa Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun elmi işlər üzrə direktor müavini, tarix üzrə fəlsəfə doktoru Cəmil Quliyev isə AMEA-nın Lənkəran Regional Elmi Mərkəzinin elmi katibi vəzifəsinə təsdiqləniblər.

İclasda qeyd olunan məsələlər ətrafında akademik Arif Həşimov, akademik İbrahim Quliyev, akademik Gövhər Baxşəliyeva, tarix elmləri doktoru Zemfira Hacıyeva və başqaları çıxış edərək fikir və təkliflərini səsləndiriblər.

Sonda bir sıra cari məsələlər müzakirə olunub.

# Naxçıvan Muxtar Respublikasının yaradılması: tarix və müasirlik




**Azərbaycan Milli Elmlər Akademiyası, AMEA-nın Naxçıvan Bölməsi, AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu, Naxçıvan Dövlət Universiteti və Naxçıvan Müəllimlər İnstitutunun birgə təşkilatçılığı ilə "Naxçıvan Muxtar Respublikasının yaradılması: tarix və müasirlik" mövzusunda respublika elmi konfransı keçirilib.**

Konfransdan öncə təşkilatçı qurumların və elmi-tədqiqat müəssisələrinin rəhbərləri Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsini ziyarət edib, abidə önünə gül dəstəsi qoyaraq Ulu Öndərin xatirəsinə ehtiramlarını bildiriblər.

AMEA-nın Naxçıvan Bölməsində baş tutan konfransı giriş sözü ilə bölmənin sədri akademik İsmayıl Hacıyev açıb.

Bölmə sədri bildirib ki, ölkə başçısı cənab İlham Əliyevin "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" 30 dekabr 2023-cü il tarixli Sərəncamı mühüm tarixi qərar olub, 100 illik tarixə malik muxtar respublikanın Azərbaycanın ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında rolunun daha dərindən öyrənilməsinə xidmət edir. Vurğulanıb ki, Naxçıvan tarixin müxtəlif mərhələlərində üzərinə düşən vəzifələri uğurla yerinə yetirmiş, böyük dövlətlərin bölgə ilə bağlı maraqlarına rəğmən Naxçıvan əhalisi bölgənin müdafiəsini təmin etmişdir. Müasir dövrdə də Naxçıvan mühüm dövlət proqramlarının yerinə yetirilməsində fəal iştirak edir, qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirir.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik İsa Həbibbəyli konfransda "Naxçıvan Muxtar Respublikası: ədəbi-tarixi proseslər və müasir dövr" başlıqlı məruzə edib.

Azərbaycan Respublikası Prezidentinin 30 dekabr 2023-cü il tarixli Sərəncamını Naxçıvan Muxtar Respublikasına dövlət səviyyəsində göstərilən diqqətin, qayğının təzahürü kimi qiymətləndirib. Qeyd olunub ki, həmin Sərəncam Naxçıvanın muxtariyyət tarixinin və inkişaf yolunun müstəqillik ideyaları əsasında azərbaycançılıq mövqeyindən yenidən öyrənilməsinə mühüm stimul verir. Bu qayğı Naxçıvanın yeni dövr inkişafını istiqamətləndirir, onun sabahını daha aydın təsəvvür etməyə imkan verir.



"Bu gün keçirilən konfrans Naxçıvanın yeni inkişaf mərhələsində tədqiq olunmasına xidmət edir", - deyən akademik İsa Həbibbəyli özünün yeni dövrünü yaşayan Naxçıvan Muxtar Respublikasının gələcək perspektivlərindən danışıb.

Çıxışının sonunda akademik İsa Həbibbəyli konfrans iştirakçılarını muxtar respublikanın 100 illiyi və yaxın zamanda qeyd olunmuş Elm Günü münasibətilə təbrik edib, xoş arzularını çatdırıb.

Akademik İsa Həbibbəyli Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 2 fevral tarixli Sərəncamı ilə Akademiya sistemində çalışan 55 nəfərin "Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalı ilə təltif olunduğunu bildirib. AMEA-nın Naxçıvan Bölməsinin sədri akademik İsmayıl Hacıyevə, Milli Azərbaycan Tarixi Muzeyinin direktoru akademik Nailə Vəlixanlıya, Naxçıvan Bioresurslar İnstitutunun baş elmi işçisi akademik Tariyel Talıbova və AMEA-nın müxbir üzvü Əbülfəz Quliyevə medalları təqdim edib.

Konfransda, həmçinin AMEA-nın Naxçıvan Bölməsinin Əlyazmalar Fondunun direktoru filologiya elmləri doktoru Fərman Xəlilov Azərbaycanda elmin və təhsilin inkişafına verdiyi töhfələrə, gənc alimlərin yetişdirilməsində, onlara milli-mənəvi dəyərlərin aşılanmasında xidmətlərinə görə və Elm Günü münasibətilə Azərbaycan Ağsaqqallar Şurasının "Fəxri Ağsaqqal" döş nişanı ilə təltif olunub.

Akademik İsa Həbibbəyli AMEA-nın müxbir üzvü Vəli Baxşəliyevə və filologiya üzrə fəlsəfə doktoru, dosent Firudin Rzayevə səmərəli elmi fəaliyyətinə görə və 27 Mart - Elm Günü münasibətilə Azərbaycan Milli Elmlər Akademiyasının Fəxri fərmanını, bölmənin 19 əməkdaşına isə Azərbaycan Milli Elmlər Akademiyasının elmi mühitində və ictimai həyatında fəal iştirakına görə "Təşəkkürnamə" təqdim edib.

Təltif olunanlar adından çıxış edən akademik İsmayıl Hacıyev ölkə başçısına minnətdarlığını bildirib.

Öz işini məruzələrin təqdimatı ilə davam etdirən konfransda Milli Azərbaycan Tarixi Muzeyinin direktoru akademik Nailə Vəlixanlı "Naxçıvan Muxtar Respublikasının 100 illiyi və Milli Azərbaycan Tarixi Muzeyinin qarşısında duran vəzifələr", AMEA-nın A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun direktoru professor Kərim Şükürov "Naxçıvan tarixində yeni səhifə: Ehsan xanın Peterburq səfəri haqqında", Naxçıvan Dövlət Universitetinin rektoru dosent Elbrus İsayev "Naxçıvanda ali təhsil", Naxçıvan Müəllimlər İnstitutunun rektoru dosent Azad Novruzov "Muxtariyyət dövründə Naxçıvanda ümumi təhsil", AMEA-nın A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutunun Əliyevşünaslıq şöbəsinin müdiri tarix elmləri doktoru Ədalət Qasımov "Naxçıvan Muxtar Respublikasının davamlı inkişafında Ümummilli Lider Heydər Əliyevin xidməti" və AMEA-nın Naxçıvan Bölməsinin sədri akademik İsmayıl Hacıyev "Naxçıvan Muxtar Respublikasının siyasi-hüquqi statusu" mövzusunda məruzələr ediblər.

# AMEA-nın prezidenti Bakı Şəhər İcra Hakimiyyətində keçirilən elmi-praktiki konfransda çıxış edib






**Bakı Şəhər İcra Hakimiyyətində ölkənin tanınmış ictimai-siyasi, elm və mədəniyyət xadimlərinin, tarixçi alimlərin, siyasətçilərin, iqtisadçıların, jurnalistlərin, din xadimlərinin, Milli Məclisin deputatlarının və Vətən müharibəsi veteranlarının iştirakı ilə elmi-praktiki konfrans keçirilib.**

Konfrans Bakı Şəhər İcra Hakimiyyəti və AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun birgə hazırladığı "Vətən müharibəsi tarixi - Şəxsiyyət faktoru" kitabının davamı olan ikinci kitabın çapına hazırlıq işlərinə həsr edilib.

Tədbiri açıq elan edən Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov bildirib ki, yeni kitabda Vətən müharibəsindən sonrakı müddət ərzində ölkəmizdə baş verən əhəmiyyətli hadisələrin obyektiv və elmi izahı dahi şəxsiyyət, sərkərdə İlham Əliyev faktoru nöqteyi-nəzərindən öz əksini tapacaq.

Vurğulanıb ki, birinci kitab ölkəmizdə və eyni zamanda, ölkə xaricində oxucu və ekspertlərin böyük marağına səbəb olduğundan 8 dildə - Azərbaycan, türk, ingilis, rus, ərəb, fars, Çin və urdu dillərində nəşr edilib. Hazırda kitabın ispan, fransız dillərində tərcüməsi və çapı üzərində işlər davam edir.

Bildirilib ki, Vətən müharibəsindən ötən qısa dövr ərzində ölkədə bir sıra mühüm hadisələr, o cümlədən 2023-cü ilin sentyabrındakı lokal antiterror tədbiri və ölkəmizin ərazi bütövlüyünün tam təmin edilməsi, Xankəndi şəhərində keçirilən hərbi parad və digər mühüm əhəmiyyət daşıyan proseslər baş verib. Bu da yeni kitabın nəşr edilməsi zərurətini yaradıb.

Kitaba daxil ediləcək mövzuların təhlili və geniş fikir mübadiləsi ilə keçirilən tədbirdə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli çıxış edib. "Vətən müharibəsi tarixi - Şəxsiyyət faktoru" kitabının tarixi faktlar əsasında hazırlandığını qeyd edən akademik nəşrin Vətən müharibəsi haqqında həqiqətlərin gələcək nəsillərə çatdırılması baxımından əhəmiyyətini vurğulayıb. Öz aktuallığı ilə seçilən kitabda Prezident İlham Əliyevin müdrik siyasətinin, qətiyyətinin və dahi sərkərdəlik qabiliyyətinin əks olunduğunu deyib.

Azərbaycan Memarlar İttifaqının sədri Elbay Qasımzadə, Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova, AMEA Tarix İnstitutunun direktoru, professor Kərim Şükürov, Milli Məclisin deputatları Musa Quliyev, Hikmət Babaoğlu, Musa Qasımlı, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, siyasi elmlər doktoru Elçin Əhmədov və digərləri çıxış edərək çap olunacaq kitabın əhəmiyyətini diqqətə çatdırıb, Vətən savaşında qazanılan şanlı Qələbə və sonrakı dövrə aid hadisələrin geniş təbliğinin vacibliyini vurğulayıblar.

Kitabın bu ilin sonunadək işıq üzü görməsi nəzərdə tutulub.

# "Türk xalqları ədəbiyyatı" üç cilddə nəşr ediləcək



**AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi şurasının növbəti iclası keçirilib.**

Əvvəlcə ədəbiyyatşünas alim, Ədəbiyyat İnstitutunun XX əsr (Sovet dövrü) Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri filologiya elmləri doktoru, professor Şirindil Alışanlının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

İclası giriş sözü ilə açan AMEA-nın prezidenti, institutun direktoru akademik İsa Həbibbəyli martın 27-də Akademiyada Elm Günü münasibətilə "Elm Günü və Günün elmi: humanitar tədqiqatlar və süni intellekt" mövzusunda təntənəli tədbirin keçirildiyini xatırladıb. Akademik İsa Həbibbəyli əməkdaşları bu əlamətdar gün münasibətilə təbrik edib, onlara elmi fəaliyyətlərində uğurlar arzulayıb.

Daha sonra Akademiya üzrə ensiklopedik və çoxcildlik nəşrlərin genişləndirilməsi istiqamətində görülən işlərdən bəhs edib, yaxın günlərdə nəşrlərin təşviqi ilə bağlı Rəyasət Heyəti tərəfindən müvafiq qərarın qəbul ediləcəyini diqqətə çatdırıb.

Akademik İsa Həbibbəyli AMEA-da "Heydər Əliyev Ensiklopediyası" və "Qərbi Azərbaycan Ensiklopediyası"nın nəşrə hazırlandığını, eləcə də ikicildlik "Nizami Gəncəvi ensiklopediyası" və "Mirzə Fətəli Axundzadə ensiklopediyası" üzərində işlərin getdiyini bildirib. AMEA rəhbəri, həmçinin Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu tərəfindən 9 cilddə "Ədəbi proses" kitabının, iki cilddə "Ədəbiyyatda Heydər Əliyev obrazı: tarixi gerçəklikdən ideala" monoqrafiyasının, iki cilddə "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" kitabının, əməkdaşların 9 cilddə biblioqrafik göstəricisinin çap edildiyini söyləyib.

Türk xalqları arasında əlaqələrin genişləndirilməsinin önəmini vurğulayan natiq Prezident İlham Əliyevin fevralın 14-də keçirilən andiçmə mərasimindəki çıxışı zamanı Türk xalqları ilə əlaqələri prioritet istiqamət kimi diqqətə çatdırdığını bildirib. Qeyd edib ki, ölkə başçısı çıxışı zamanı "Biz beynəlxalq təşkilatlarla bağlı bundan sonra da öz addımlarımızı atacağıq, ilk növbədə, Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimizi davam etdirəcəyik. Bu, bizim üçün prioritetdir, mən bunu açıq demək istəyirəm, yəqin ki, indi aparılan siyasət də hər kəsə bunu aydın göstərir. Bu, bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz Türk dünyasıdır", - deyib. O, bu baxımdan institut tərəfindən hazırlanacaq üç cilddə "Türk xalqları ədəbiyyatı"nın əhəmiyyətini qeyd edib.

İclasda üç cilddə "Türk xalqları ədəbiyyatı"nın hazırlanması haqqında qərar qəbul olunub, nəşrlə bağlı redaksiya heyətinin tərkibi müəyyən edilib, müvafiq tapşırıqlar verilib.

Bundan başqa, prof. Nizami Məmmədovun (Tağısoyun) "Qazax ədəbiyyatı tarixi" adlı monoqrafiyasının, fil.f.d., dos. Təranə Abdullayevanın tərtib etdiyi "Fatma xanım Kəminə. Əsərləri"nin, fil.f.d. Məlahət Qədirovanın hazırladığı "Belarus ədəbiyyatı antologiyası"nın ikinci cildinin, Cənubi Azərbaycan ədəbiyyatı şöbəsinin böyük elmi işçisi Lətifə Mirzəyevanın "Sənətkarın elmi pasportu" seriyasına daxil olan "Mərziyə Əhmədi Üskui Dalğa: həyatı və yaradıcılığı" monoqrafiyasının, eləcə də fil.f.d., dos. Təhminə Bədəlovanın "Nizamini anlamaq ehtiyacı" kitabının və fil.f.d. Nurlanə Məmmədovanın "Tənqidçinin düşüncələri: Məsud Əlioğlu" monoqrafiyasının çapa tövsiyə olunmaları ilə bağlı qərarlar qəbul edilib.

Elmi şuranın digər qərarı ilə institutun dissertantı Sevinc Əsgərovanın "M.T.Qumri: həyatı, yaradıcılığı, mühiti" adlı fəlsəfə doktorluğu dissertasiya mövzusu "Mirzə Rəhim Fəna: həyatı, mühiti və yaradıcılığı" kimi dəyişdirilib.

Tədbirdə professor Asif Rüstəmli və fil.ü.f.d., dosent Zakirə Əliyeva 70 illik yubileyləri münasibətilə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitununun Fəxri fərmanları ilə təltif olunublar.

Sonda bir sıra kadr məsələlərinə baxılıb.

## Akademiya prezidentindən təyinat

**Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik İsa Həbibbəylinin sərəncamı ilə texnika üzrə fəlsəfə doktoru dosent Hüseyn Hüseynov AMEA Mərkəzi Elmi Kitabxanasının direktoru vəzifəsinə təyin olunub.**



Texnika üzrə fəlsəfə doktoru Hüseyn Hüseynov 1978-ci ildə Füzuli rayonunun Qaraxanbəyli kəndində anadan olub. 2002-ci ildən Azərbaycan Milli Elmlər Akademiyasında çalışır. 2018-2022-ci illərdə AMEA Rəyasət Heyəti aparatının Elm və təhsil şöbəsi müdirinin müavini vəzifəsində işləyib. 2022-ci ildən həmin şöbənin müdiri vəzifəsində çalışıb.

Texnika üzrə fəlsəfə doktoru, dosent Hüseyn Hüseynov 9 aprel 2024-cü il tarixdə texnika elmləri doktoru elmi dərəcəsi almaq üçün dissertasiya müdafiə edəcəkdir.

Dosent Hüseyn Hüseynov AMEA Direktorlar Şurasının sədr müavini, AMEA-da Ekspedisiyaların təşkili üzrə komissiyanın üzvüdür. O, eyni zamanda, Yeni Azərbaycan Partiyası AMEA Rəyasət Heyəti ərazi ilk partiya təşkilatının sədridir.

Hüseyn Hüseynovun qardaşı Ramil Hüseynov Birinci Qarabağ müharibəsində şəhid olub.

# Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr olunmuş elmi sessiya



**AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə həsr olunmuş elmi sessiya keçirilib.**

Sessiyanı giriş sözü ilə açan AMEA-nın vitse-prezidenti vəzifəsini icra edən, Şərqşünaslıq İnstitutunun direktoru, akademik Gövhər Baxşəliyeva Naxçıvan torpağının yetirdiyi çox sayda görkəmli elm xadimləri, sənətkarları, tarixi şəxsiyyətləri ilə ölkəmizin sosial-iqtisadi, ictimai-siyasi həyatında əvəzsiz rol oynadığını söyləyərək, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Muxtar Respublikasının 100 illik yubileyinin keçirilməsi haqqında 30 dekabr 2023-cü il tarixli Sərəncamını xatırladıb. Bu Sərəncama əsasən dövlət səviyyəsində qeyd olunan tədbirlər sırasında Azərbaycan Milli Elmlər Akademiyasının da üzərinə düşən vəzifələri xatırladan G.Baxşəliyeva şərqşünas alimlərin də Naxçıvanın tarixi, bu torpağın yetirdiyi görkəmli elm və mədəniyyət nümayəndələrinin əsərləri ilə bağlı tədqiqatlar apardıqlarını bildirib.

Elmi sessiyada institutun elmi işlər üzrə direktor müavini filologiya üzrə fəlsəfə doktoru, dosent Ruhəngiz Cümşüdlü "Heydər Əliyev və Naxçıvan" mövzusunda məruzə edib. Məruzədə bildirilib ki, Ümummilli Lider Heydər Əliyev Naxçıvanda fəaliyyət göstərdiyi dövrdə 1992-ci ilin mart və avqust aylarında Türkiyə Respublikasına səfəri zamanı Moskva və Qars müqavilələrini yenidən gündəmə gətirib. Məruzəçi dahi rəhbərin dünya ictimaiyyətinin diqqətini Ermənistanın təcavüzkar siyasətinə yönəltməklə Naxçıvanın muxtariyyət statusuna ikinci həyat bəxş etdiyini və Ermənistanın ilk böyük siyasi məğlubiyyətə uğramasına nail olduğunu vurğulayıb. Bildirilib ki, Ulu Öndər Heydər Əliyevin Naxçıvanın muxtariyyət statusunun qorunması, muxtar respublikanın yubileyinin keçirilməsi istiqamətində həyata keçirdiyi tədbirlər dahi rəhbərin bu qədim yurd yerinə qayğısının ifadəsi idi.

İnstitutun Türkiyə tarixi və iqtisadiyyatı şöbəsinin müdiri tarix üzrə fəlsəfə doktor Namiq Məmmədov "XX əsrin əvvəllərində Azərbaycan -Türkiyə münasibətləri və Naxçıvan məsələsi" mövzusunda məruzə edib. Məruzədə Azərbaycanın Naxçıvan bölgəsinin XX əsrin əvvəllərində Azərbaycan -Türkiyə münasibətlərində yeri və rolu haqqında məlumat verilib, eyni zamanda Birinci Dünya Müharibəsindən sonra yaranmış vəziyyətdə Naxçıvan, həmçinin oraya erməni hücumları və iddiaları, Türkiyənin bölgə əhalisini erməni qırğınlarından xilas etmək tədbirləri, Araz-Türk Respublikası, AXC dövründə yaradılmış Naxçıvan general qubernatorluğu və onun fəaliyyəti, Azərbaycanda sovet işğalından sonra ermənilərin Naxçıvana iddiaları, Sovet Rusiyası ilə Türkiyə arasındakı münasibətlərdə Naxçıvan məsələsi və Naxçıvan Muxtar Respublikasının yaradılması barədə bəhs edilib.

Elmi sessiyada çıxışlar ətrafında müzakirələr aparılıb, tədbir iştirakçılarının sualları cavablandırılıb.

# Mərkəzi Elmi Kitabxananın yeni direktoru kollektivə təqdim edilib

**AMEA-nın Mərkəzi Elmi Kitabxanasına yeni direktor təyinatı olub. MEK-in direktoru vəzifəsinə AMEA Rəyasət Heyəti aparatının Elm və təhsil şöbəsinin müdiri texnika üzrə fəlsəfə doktoru, dosent Hüseyn Hüseynov təyin edilib.**



Yeni direktoru kollektivə təqdim edən AMEA-nın vitse-prezidenti v.i.e., akademik Gövhər Baxşəliyeva Mərkəzi Elmi Kitabxananın çoxillik fəaliyyətindən söz açaraq texnika üzrə fəlsəfə doktoru, dosent Hüseyn Hüseynovu uzun illər AMEA Rəyasət Heyəti aparatında çalışan bacarıqlı və işgüzar əməkdaş kimi dəyərləndirib və müəssisənin qarşısında duran vəzifələrdən danışıb. O, MEK-in direktoru vəzifəsindən azad edilmiş fəlsəfə elmləri doktoru Məmməd Əliyevə çoxillik fəaliyyətinə görə AMEA-nın prezidenti akademik İsa Həbibbəylinin adından təşəkkür edib. Vitse-prezident yeniləşən Akademiyada aparılan islahatların əhəmiyyətini qeyd edərək Mərkəzi Elmi Kitabxanada elektron resursların təkmilləşdirilməsi, o cümlədən elektron kitabxananın və kataloqların hazırlanması işinin təşkil edilməsinin vacibliyini xüsusi diqqətə çatdırıb və kollektivə uğurlar arzulayıb.

AMEA Azad Həmkarlar İttifaqının sədri siyasi elmlər üzrə fəlsəfə doktoru Sənan Həsənov, AMEA Rəyasət Heyəti aparatının "Elektron Akademiya" şöbəsinin müdiri riyaziyyat üzrə fəlsəfə doktoru Fariz İmranov və AMEA Rəyasət Heyəti aparatının İctimaiyyətlə əlaqələr, mətbuat və informasiya şöbəsinin müdiri filologiya üzrə fəlsəfə doktoru Ağahüseyn Şükürov çıxış edərək yeni təyin olunmuş direktor Hüseyn Hüseynovun elmi və təşkilatçılıq bacarığını diqqətə çatdırmaqla qarşıda duran məsul vəzifələrdən danışıblar.

Öz ərizəsi ilə Mərkəzi Elmi Kitabxananın direktoru vəzifəsindən azad edilən fəlsəfə elmləri doktoru Məmməd Əliyev çıxış edərək AMEA rəhbərliyinə minnətdarlığını ifadə edib.

Sonda çıxış edən texnika üzrə fəlsəfə doktoru, dosent Hüseyn Hüseynov göstərilən yüksək etimada görə AMEA rəhbərliyinə minnətdarlığını bildirib və elektron kitabxananın yaradılması və kitabxananın idarə edilməsi üçün məsuliyyətlə çalışacağını bildirib.

Qeyd edək ki, texnika üzrə fəlsəfə doktoru Hüseyn Hüseynov 1978-ci ildə Füzuli rayonunun Qaraxanbəyli kəndində anadan olub. 2002-ci ildən AMEA-da müxtəlif vəzifələrdə çalışan Hüseyn Hüseynov 2016-cı ildən AMEA Rəyasət Heyəti aparatının Elm və təhsil şöbəsində fəaliyyət göstərib. 2018-ci ildən həmin şöbənin müdir müavini, 2022-ci ildən isə şöbənin müdiri vəzifələrində işləyib.

Yeni Azərbaycan Partiyası AMEA Rəyasət Heyəti ərazi ilk partiya təşkilatının sədridir.

Hüseyn Hüseynovun qardaşı Ramil Hüseynov Birinci Qarabağ müharibəsində şəhid olub.

# "Heydər Əliyev və yeni liderlik: fəlsəfi-elmi təhlil" əsərinə bir baxış

**AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun İdrak nəzəriyyəsi və məntiq şöbəsinin müdiri, fəlsəfə elmləri doktoru Füzuli Qurbanovun "Heydər Əliyev və yeni liderlik: fəlsəfi-elmi təhlil" adlı monoqrafiyası bu yaxınlarda nəşr edilmişdir. Maraqlı və dərin elmi-fəlsəfi məqalələri və çıxışları ilə ölkə ictimaiyyətinin yaxından tanıdığı tədqiqatçının bu elmi əsəri liderliyin fəlsəfi-elmi təhlili prizmasında ulu öndər Heydər Əliyevin liderlik fəlsəfəsinin tədqiqinə həsr edilmişdir. Müəllif liderlik haqqında fəlsəfə tarixində mövcud olan fikirləri, nəzəri-praktik fəaliyyətləri ümumiləşdirməklə, onları müasir fəlsəfi-elmi idrak kontekstində təhlil etmiş, Heydər Əliyevin liderlik fəlsəfəsinin nəzəri-praktik cəhətlərini siyasi varisliklə uğurla davam etdirildiyini əhatəli şəkildə araşdıraraq təqdim etmişdir.**




Azərbaycan cəmiyyəti 1993-cü ilin iyununda Heydər Əliyevi yenidən rəhbərliyə dəvət etməklə milli liderə dərin inam və etimadını nümayiş etdirdi. Müəllif vurğulayır ki, bununla xaotik bir mərhələni siyasi baxımdan yeni bir dinamika ilə əvəz etmək şansı yarandı. Həmin dönəmdə Heydər Əliyev praktiki fəaliyyətində qısa müddətdə siyasi liderliyin üç keyfiyyətinin yüksək səmərəli sintezini reallaşdırdı - müstəqil Azərbaycanda partiya liderliyi, dövlət başçısı və xalq liderliyinin uğurlu harmoniyasına nail oldu. Bu hadisənin fəlsəfi anlamının əsasında müəllifin qeyd etdiyi kimi, yeni bir məzmun, mahiyyət əsas yer tuturdu, çünki XX əsr Azərbaycan dövlətçilik tarixində ilk dəfə idi ki, bir şəxsin timsalında uğurlu siyasi, milli və sonra ümummilli liderliyin vahid obrazı yaranırdı. Bu, müasir mərhələdə liderlik modelində siyasi, sosial, mədəni, mənəvi-əxlaqi və ideoloji çalarları olan yenilik idi. Bu yenilik sayəsində Azərbaycanda müasir müstəqil demokratik dövlətin uğurlu liderliyinin yeni modeli formalaşdı.

Beləliklə, Heydər Əliyev XX əsrdə Azərbaycanda yeganə liderdir ki, ümummilli lider statusuna yüksəldi. Bu yüksəliş uzun illərin zəngin təcrübəsi, siyasi xadim kimi yüksək keyfiyyətləri, Lider kimi Vətən sevgisi əsasında siyasi-diplomatik və idarəetmə məharəti və millətin maraqlarını təmin etmək qüdrəti sayəsində reallaşdırıldı.

Bu dəyərli araşdırmada filosof diqqəti bir məsələyə cəlb edir ki, hazırkı şəraitdə dünyanın müxtəlif ölkələrində liderlik xüsusilə aktuallaşmışdır və onun bəşəriyyət üçün önəmi getdikcə artmaqdadır. Məsələnin bu cəhətini filosoflar, siyasi xadimlər, analitiklər, strateqlər, lideroloqlar, sosioloqlar, kulturoloqlar da vurğulayırlar. Belə təəssürat yaranır ki, dünyanın qloballaşma və rəqəmsal mühitində riskli, ziddiyyətli və bu mənada mürəkkəb vəziyyətə transformasiya dərinləşdikcə, gözlər, ilk növbədə, liderlərə tərəf çevrilir. Qeyd etməliyik ki, ölkəmizin müstəqillik illərinin əvvəllərində həm Ermənistanın işğalından, həm də bir sıra daxili və xarici təsirlərdən qaynaqlanan dərin böhran və müstəqilliyin itirilməsi təhlükəsi ilə üzləşən xalqımızın böyük əksəriyyətinin elliklə Heydər Əliyevə yeganə ümid və pənah yeri kimi baxması, məhz onun xilaskar kimi ölkəni və dövləti qurtaracağına inamı müəllifin bu fikrini təsdiqləyir.

Müəllif əsərdə belə bir tezis irəli sürür ki, liderlikdə olduğu kimi, dövlətçilikdə də varislik fəlsəfi baxımdan mühüm şərtdir. Araşdırmalar göstərir ki, dünyada hələlik bu məsələdə uğurlu nümunə haqqında universal formul mövcud deyildir. Lakin hər bir ölkənin konkret durumundan asılı olaraq uğurlu siyasi varislik formulunu müəyyən etmək mümkündür. Burada fəlsəfi-elmi aspektdə başlıca şərt siyasi varisliyin dövlətçilikdə davamlılığı təmin etməklə uzlaşmasına nail olmaqdan ibarətdir. Yeni siyasi liderlikdəki davamlılıq dövlət quruculuğunda davamlılıqla uyğunlaşmalı və həmahəng olmalıdır. Postsovet məkanı dövlətlərinin təcrübəsi göstərir ki, ancaq Azərbaycanda sözün həqiqi mənasında varislik prinsipi yüksək səmərə verməkdədir. Burada dövlətçiliyin güclənməsi ilə siyasi varisin lider kimi nüfuzunun yüksəlməsi bir-birini tamamlayır. Bu, o deməkdir ki, ulu öndər siyasi varisliyi dövlətçiliyin inkişafı ilə sıx əlaqələndirən formulu müəyyən etmiş və varisin lider kimi yetişməsində həmin məqamı yüksək səviyyədə nəzərə almışdır.

2003-cü ildə Azərbaycan Respublikasına Prezident seçilən İlham Əliyev XXI əsrin çağırışları zəminində dövlət başçısı vəzifəsini siyasi-milli liderliklə sintez etməyə başladı. Bu liderliyin ümumi hədəfi milli demokratik dövlətçiliyin inkişaf etdirilməsi strategiyası çərçivəsində müəyyən edilmişdi. F.Qurbanovun fikrincə bu hədəflərdə üç başlıca istiqamət var idi - birincisi, güclü dövlət quruculuğunu yeni səviyyəyə yüksəltmək; ikincisi, güclü dövlət quruculuğu ilə güclü və demokratik vətəndaş cəmiyyəti quruculuğunun harmoniyasına nail olmaq; üçüncüsü, Azərbaycan Respublikasının ərazi bütövlüyünü təmin etmək.

Müəllifin nəzərincə, məsələnin bu cür qoyuluşu dövlət başçısı-liderin faktiki olaraq yeni liderlik keyfiyyətinə malik olmasını tələb edir. Konkret fəlsəfi-elmi tərzdə ifadə etsək, xilaskarlıq missiyası quruculuq, birləşdiricilik, çeviklik, kreativlik, idarəetməni təkmilləşdirmək kimi keyfiyyətləri ilə yanaşı, çoxvariantlı yeniləşmələrə tam hazır olmağı da özündə ehtiva edir. Çoxvariantlı yeniləşmələr strateji zəka, iradi qətiyyət, praqmatik fəaliyyət, daxili, regional və qlobal miqyasların yeniləşməsi məntiqlərini uyğunlaşdırmaq kimi keyfiyyətlərə malik olmağı zərurətə çevirir.

Beləliklə, İlham Əliyevin yeni liderliyində azərbaycançılıq və multikulturalizmin ölkədaxili mühitdə birliyi və qlobal miqyasda azərbaycanlıların həmrəyliyinə nail olmaq istiqamətlərində atdığı addımlar xüsusi yer tutur. Bu iki səviyyədə azərbaycançılıqla multikulturalizmi real ortaq sahəyə gətirən başlıca faktor Azərbaycanın güclü dövlət olmasıdır. Güclü dövlət də güclü və monolit toplumun formalaşmasında həlledici rol oynayır. Bu mənada daxili birlik güclü dövlət olmaqdan birbaşa asılıdır. Güclü dövlət həm nüfuz imkanlarına malik olur, həm də bu imkanları reallaşdırmanın praktiki təşkilini həyata keçirə bilir.

Füzuli Qurbanovun bu orijinal tədqiqat işi ümumnəzəri-metodoloji özəlliklərin işığında Azərbaycanda yeni liderliyin fəlsəfi-elmi dərki üçün bir sıra vacib və strateji əhəmiyyəti olan parametrləri aydınlaşdırmağa imkan verir. Müəllifin Güclü Dövlət və Vətəndaş Cəmiyyəti quruculuğu konseptinin ümumi çətiri altında Böyük Millət quruculuğu, postmünaqişə mərhələsində yeni liderlik, Zəfər fəlsəfəsi və strateji inkişaf sənədlərində liderliyin ifadəsi və rolu ilə bağlı təhlilləri maraqlı nəticələr almağa şərait yaradır.

Maraqlı tədqiqat işində gəlinən qənaətlərin mərkəzində bu tezis dayanır: Azərbaycanda XXI əsrdə Yeni Lider siyasi varislik, kreativlik, praqmatizm və yüksək rəqabətliliyə davamlı dövlət-cəmiyyət vəhdətinin yaradılması kimi parametrləri özündə ehtiva edən məqsədlərə çatmaq üçün zəruri olan keyfiyyətlərin daşıyıcısı olmalıdır. Yeni Lider Azərbaycanı uğurlu gələcəyə aparmalıdır. Azərbaycan Respublikasının belə bir Lideri vardır: İlham Heydər oğlu Əliyev!

**Eynulla MƏDƏTLİ**
**AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun**
**elmi işlər üzrə direktor müavini,**
**tarix elmləri doktoru**

# "Kitabi Dədə Qorqud" müstəqillik epoxasında" kitabı işıq üzü görüb

**AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu tərəfindən "Kitabi Dədə Qorqud" müstəqillik epoxasında" (sənədlər və materiallar) kitabı nəşr edilib.**




Kitab institut Elmi şurasının 8 fevral 2023-cü il tarixli qərarı ilə çap olunub.

AMEA-nın prezidenti Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli "Kitabi-Dədə Qorqud" salnaməsi" sərlövhəli əhatəli "Ön söz"də nəşrin əhəmiyyətindən bəhs edib. Kitabın toplayanı, tərtib edəni və nəşrə hazırlayanı filologiya üzrə fəlsəfə doktoru, dosent İsmixan Osmanlıdır. Məsul redaktoru isə filologiya üzrə fəlsəfə doktoru Töhfə Talıbovadır.

Dörd hissədən ibarət kitabda görkəmli dövlət xadimi Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqımızın möhtəşəm ədəbi abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanları ilə əlaqədar imzaladıqları Fərman və sərəncamlar, müxtəlif tədbirlərdəki nitqləri, həmin tədbirlərdə iştirak etmiş tanınmış simaların çıxışlarının mətnləri verilib.

304 səhifədən ibarət kitab "Elm" nəşriyyatında işıq üzü görüb.

# "Qərbi Azərbaycan" biblioqrafik göstəricisi

**AMEA-nın Mərkəzi Elmi Kitabxanasının (MEK) hazırladığı "Qərbi Azərbaycan" biblioqrafik göstəricisi işıq üzü görüb.**




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının bəyan edilməsi ilə AMEA-da görülən mühüm işlərlə yanaşı, MEK tərəfindən ərsəyə gələn "Qərbi Azərbaycan" biblioqrafik göstəricisi özünün geniş əhatə dairəsi, ümumiləşdirmə imkanları və elmi əhəmiyyəti etibarilə seçilən ilk fundamental biblioqrafik nəşrdir.

Bu, ölkəmizdə Qərbi Azərbaycan haqqında aparılmış çoxsaylı tədqiqatların, yazılmış monoqrafiyaların və məqalələrin elmi salnaməsi olmaqla, daha öncə aparılmış tədqiqatları ümumiləşdirərək bundan sonrakı araşdırmaların istiqamətləndirilməsi üçün əhəmiyyətli bələdçidir.

Kitab Ümummilli Lider Heydər Əliyevin və Prezident İlham Əliyevin Qərbi Azərbaycana dair çıxışları ilə başlayır.

Biblioqrafik göstəricidə Qərbi Azərbaycana dair ədəbiyyatın biblioqrafiyası, eləcə də ictimai və humanitar, riyaziyyat, təbiət elmləri, səhiyyə texnika, kənd təsərrüfatı, incəsənət, dilçilik, linqvistika, filologiya, coğrafiya, tarix üzrə Azərbaycan, rus və digər xarici dillərdə kitab və məqalələr elm sahələri üzrə, xronoloji qaydada, əlifba sırası ilə qruplaşdırılıb. Dissertasiya və avtoreferatlar isə ayrıca bölmədə illər üzrə əlifba sırası ilə verilib. Nəşrdə, həmçinin AMEA-nın prezidenti akademik İsa Həbibbəylinin "Qərbi Azərbaycanın elmi salnaməsi" adlı məqaləsi də yer alıb.

Nəşrin elmi məsləhətçisi AMEA-nın prezidenti akademik İsa Həbibbəyli, elmi redaktoru f.ü.f.d. Əziz Ələkbərli, redaktoru, f.e.d., professor Məmməd Əliyev, tərtibçisi kitabxananın baş biblioqrafı, Əməkdar mədəniyyət işçisi Xuraman İsmayılova, ixtisas redaktorları İnnovativ layihələr və metodiki təminat şöbəsinin rəhbəri Səyyarə Məmmədova və şöbənin əməkdaşı f.ü.f.d. Şəfəq Əliyevadır.

Göstərici tədqiqatçı alim və mütəxəssislər, həmçinin geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

# Şərqşünas alimin məqaləsi Tehranda çap olunub

**AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun aparıcı elmi işçisi dosent Sübhan Talıblının "1918-ci ildə Lənkəran, Cavad və Göyçay qəzalarında azərbaycanlıların soyqırımı" adlı məqaləsi Tehranda "Xudafərin" jurnalında dərc olunub.**



Dosent Sübhan Talıblı məqalədə çar Rusiyası və bir sıra dövlətlərin hərtərəfli dəstəyilə tarixi Azərbaycan torpaqlarında məskunlaşdırılan ermənilərin ərazilərimizdə zaman-zaman təcavüz, soyğunçuluq, qarət, etnik təmizləmə, kütləvi qırğınlar, soyqırımı həyata keçirdiklərini qeyd edib. Məqalədə 1918-ci ildə regional və beynəlxalq güclərin hərtərəfli dəstəyilə tarixi Azərbaycan torpaqlarında yaratdıqları "Ermənistan"ın onların himayəsi ilə 1905-1907-ci, 1918-ci, 1920-ci, 1948-1953-cü, 1988-ci illərdə, eləcə də I Qarabağ müharibəsi dövründə türk-müsəlman xalqlarına qarşı deportasiya, soyqırımı və etnik təmizləmə siyasəti həyata keçirdiyi vurğulanıb.

Məqalədə bildirilir ki, 1918-ci il avqustun 31-də Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin sədri Fətəli xan Xoyskinin Gəncə şəhərində imzaladığı qərara əsasən, 7 nəfərdən ibarət Fövqəladə Təhqiqat Komissiyası yaradılıb. Əsas məqsəd erməni daşnakların azərbaycanlıların həyatına və onların əmlakına qarşı cinayətlərini təhqiq etmək olub. Əlimərdan bəy Topçubaşov Fövqəladə Təhqiqat Komissiyasının hazırladığı materialları və fotoşəkilləri Paris Sülh Konfransına təqdim etmişdi.

Ümummilli Lider Heydər Əliyevin "Azərbaycanlıların soyqırımı" haqqında 1998-ci il 26 mart tarixli Fərmanının, Prezident İlham Əliyevin "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" 2018-ci il 18 yanvar tarixli Sərəncamının ermənilərin cinayətkar və terror əməllərinin araşdırılması, o cümlədən beynəlxalq təşkilatlara və dünya ictimaiyyətinə çatdırılması baxımından böyük tarixi, siyasi və hüquqi rolu olduğunu yazan müəllif 2007-ci il aprelin 1-də Qubada aşkar olunmuş soyqırımı məzarlığında azərbaycanlılarla bərabər, Qubada yığcam halda yaşayan ləzgi, yəhudi, tat və digər etnik qrupların nümayəndələrinin də amansızcasına qətlə yetirilərək basdırıldığını bildirib.

Dosent Sübhan Talıblı məqalədə Lənkəran, Cavad və Göyçay qəzalarında baş vermiş soyqırımı haqda Azərbaycan, türk, rus və digər xarici dilli mənbələrə, eləcə də həmin dövrlə bağlı dövri mətbuata istinad edərək yazıb.

# Azərbaycan dialektologiyası ilə bağlı kitab

**Bu günlərdə çapdan çıxan "Gürcüstandan Azərbaycana dialektoloji lüğət"də Azərbaycanın Qazax, Ağstafa, Tovuz, Gədəbəy, Şəmkir rayonlarının, Gəncə şəhərinin və Gürcüstanın cənub-şərqindəki Borçalı bölgəsinin dialekt sözləri ilk dəfə sistemli şəkildə tədqiqata cəlb edilib.**




Kitabın əvvəlində Borçalı, Qazax, Ağstafa, Tovuz, Gədəbəy, Şəmkir və Gəncə rayonları haqqında ensiklopedik məlumat yer alıb. Lüğətdə həmin bölgələrə aid təxminən 6000 dialekt sözün izahı verilib. Onların bir hissəsi əvvəllər nəşr edilmiş ümumi dialektoloji lüğətlərdən seçilib. Lüğət tərtib edilərkən əvvəlki ümumi dialektoloji lüğətlərdə adıçəkilən bölgələrə aid verilən sözlərin mühüm hissəsinin indiyədək diqqətdən yayınan və lüğətlərdə əksini tapmayan mənaları açıqlanıb, eyni zamanda, ayrı-ayrı sözlərin yayılma coğrafiyası ilə bağlı düzəliş və əlavələr edilib. Lüğət müəlliflərinin bölgələrdə apardıqları tədqiqatlar nəticəsində toplanmış 1000-dən çox söz ilk dəfə tərtib edilərək sözlüyə daxil edilib.

Dialekt sözlər Azərbaycan əlifbası ilə yazılıb, Türkiyə türkcəsində ətraflı izah edilib və leksik mənasının tam anlaşılması üçün nümunə cümlələr verilib.

Bundan başqa, kitabın sonuna hər bölgəyə xas folklor nümunələri əlavə edilib və bu mətnlər həmin dialektlərin tələffüz şəklinə uyğun olaraq verilib.

Kitabın müəllifləri Qars Qafqaz Universitetinin dosenti Afina Məmmədli-Barmanbay və Filoloji Araşdırmalar və Dil Monitorinqi Mərkəzinin sədri Vasif Sadıqlı, redaktorları Əməkdar elm xadimi professor Qəzənfər Kazımov və Ərdahan Universitetinin professoru Şurəddin Məmmədlidir. Lüğətə AMEA Nəsimi adına Dilçilik İnstitutunun dosenti Kifayət İmamquliyeva, Bakı Avrasiya Universiteti Kitabxana-İnformasiya Mərkəzinin direktoru Sima Cəfərova, Manisa Cəlal Bayar Universitetinin dosenti Ayvaz Morkoç və Qars Qafqaz Universitetinin dosenti İlkin Qulusoy rəy veriblər.

"Gürcüstandan Azərbaycana dialektoloji lüğət"in nəşri Azərbaycan Diasporuna Dəstək Fondu tərəfindən maliyyələşdirilib və İstanbulun nüfuzlu "DBY Yayınları" nəşriyyatında həyata keçirilib.

# Nizami Gəncəvidən Qütb Xarəzmiyə "Xosrov və Şirin"

**Şərq aləmində geniş yayılmış əfsanələrdən biri də "Xosrov və Şirin"dir. Əfsanədə Sasani hökmdarı II Xosrovla şahzadə Şirin arasında olan məhəbbət macərasından bəhs edilir. Bu mövzu görkəmli Azərbaycan şairi Nizami Gəncəvinin də diqqətini cəlb edib. Şair 1180-ci ildə "Xəmsə"yə daxil olan ikinci əsəri - "Xosrov və Şirin" məsnəvisini Atabəy Məhəmməd Cahan Pəhləvanın sifarişi ilə fars dilində yazıb. Qısa bir müddətdə məşhurlaşan bu əsərin müxtəlif dövrlərə aid əlyazmaları ayrı-ayrı kitabxana və muzeylərdə mühafizə olunur. Şərq ədəbiyyatına çox güclü təsir göstərən Nizaminin bu məsnəvisi uzun əsrlər şairlərin diqqətində olub, onun təsiri ilə dəfələrlə "Xosrov və Şirin" mövzusuna müraciət edilib. Bu məşhur mövzuya müraciət edənlərdən biri də Qütb Xarəzmidir.**




Bu yaxınlarda "Əcəmi" nəşriyyatında işıq üzü görən AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü, professor Əbülfəz Quliyevin tərtib etdiyi Qütb Xarəzminin "Xosrov və Şirin" əsəri həm dilimiz və ədəbiyyatımız, həm də nizamişünaslıq üçün olduqca əhəmiyyətlidir. Əsərin elmi redaktoru filologiya elmləri doktoru, professor Nadir Məmmədli, rəyçisi filologiya üzrə fəlsəfə doktoru, dosent Arif Ağalarovdur. Naxçıvan Muxtar Respublikasının 100 illiyinə həsr olunmuş kitab AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin qərarı ilə nəşr olunub.

Kitabın tərtibçisi Ə.Quliyevin də qeyd etdiyi kimi, Nizamidən sonra bu mövzuda fars və türk ədəbiyyatında altmışa yaxın əsər meydana gəlib. Həm Nizaminin farsca qələmə aldığı "Xosrov və Şirin"inə nəzirələr yazılıb, həm də o, ayrı-ayrı müəlliflər tərəfindən tərcümə edilib. Bu tərcümələr içərisində ən qədimi XIV əsrdə Qızıl Orda şairi Qütb Xarəzmi tərəfindən Xarəzm türkcəsinə edilən tərcümə nüsxəsidir.

Əbülfəz Quliyevin Azərbaycanda indiyə qədər çap olunmamış bu əsərə müraciət etməsi, onu Azərbaycan oxucusuna təqdim etməsi həm dilçilik, həm də ədəbiyyatşünaslıq sahəsinin tədqiqatçıları üçün çox əhəmiyyətlidir. Əsər həm Nizami Gəncəvi, həm Qütb Xarəzmi yaradıcılığına böyük töhfədir. Eyni zamanda orta əsrlərdə tərcümə sənəti haqqında da burada müəyyən məlumatlar öz əksini tapıb. Tərtibçi Əbülfəz Quliyev əsərə geniş ön söz yazıb. Burada Qütb Xarəzminin yaşayıb-yaratdığı Qızıl Orda dövləti, qıpçaq türklərinin bu dövlətin siyasi, sosial, mədəni həyatında rolu, burada danışılan Xarəzm türkcəsinin dil xüsusiyyətləri haqqında geniş məlumat verilib. Yazılanlardan aydın olur ki, olduqca böyük bir ərazini əhatə edən bu dövlətin daxilində güclü bir mədəniyyət formalaşıb. Bu da dil və ədəbiyyatın inkişafına təkan verib. Bu dövrdə ortaya çıxan "Xosrov və Şirin" kimi çoxlu sayda əsər türk dilinin orijinallığını təsdiq edən qiymətli mənbələrdir.

Qütbün bu əsəri 1341-ci ildə Qızıl Orda şahzadəsi Teni bəyin xahişi ilə onun həyat yoldaşı Məleykəyə ithaf olunub. Ona görə də buraya həm Teni bəyi, həm də Məleykə xatunu mədh edən müəyyən hissələr əlavə edilib. Ə.Quliyev hökmdarın öz xanımına olan məhəbbətini və ona ayrıca bir əsər ithaf etməsini türk dünyasında qadına olan yüksək hörmətin ifadəsi kimi dəyərləndirir.

Qütb Xarəzmi əsərdə Teni bəyi Xosrova bənzədərək Xosrovun ölkəni idarə etməyi ondan öyrənməli olduğunu qeyd edir. Əsər sərbəst tərcümə olduğu üçün müəllif buraya müəyyən dəyişikliklər, əlavə və ixtisarlar etmiş, əsas mövzunu saxlamaqla tamamilə yaradıcı, orijinal bir əsər ortaya qoymuşdur. Hətta Nizaminin "Xosrov və Şirin"də özünə xitab etdiyi hissələrdə də dəyişiklik edərək Qütb öz adını qeyd edir:

Nizamidə:

*Allah məni səsləyib dedi:*
*Ey Nizami, bu bütlərin fitnəsinə uyma.*

Qütbdə isə:

*Bu hayret kim tınğlandurdı dinni*
*İnayet ündedi Kutbı hazinni.*

Uzun bir müddət türkologiyada bu əsərin nəzirə, yaxud tərcümə olması barədə mübahisəli fikirlər mövcud olub. Lakin aparılan son araşdırmalar onun tərcümə olduğunu təsdiq edir.

Türk dövlətçilik tarixində mühüm yer tutan Qızıl Orda dövlətinin dili türk dili idi. Bu dil Xarəzm türkcəsindən ayrılmış qıpçaq türkcəsi idi. Türk dillərinin qədim mənzərəsini əks edirən bu dildə zəngin arxaik dil ünsürləri mühafizə olunur. Qütbün tərcüməsində "Xosrov və Şirin"də də bu dil xüsusiyyətləri qabarıqdır. Onun tərcüməsi kifayət qədər dəqiq, gözəl və xoşagələndir. O, əsərin bədii xüsusiyyətlərini, forma gözəlliyini qoruyub saxlaya bilmişdir. Əsərin dil xüsusiyyətlərindən danışarkən araşdırmaçılar yazır: "Bu abidənin çoxdan mövcud olmasına baxmayaraq, hər dəfə onu oxuyanda Qütb dilinin gözəlliyi insanı heyran edir. Əlbəttə, bu abidənin üzun müddət naməlum qalması, ancaq əlyazması fondlarını zənginləşdirməsi türkologiyanın inkişafı üçün böyük itki idi".

Qütb Xarəzminin bu əsəri Nizami Gəncəvinin "Xorsov və Şirin" əsərinin tərcüməsi sahəsində ilk təcrübədir. Qütb əsərə etdiyi əlavələrdə onu Nizamidən tərcümə etməsinin izahını verərək deyir:

*Kazan tig kaynap uş sevda bişürdüm,*
*Nizami balıdın halva bişürdüm.*
*Xanım atınga uşbu parsi tilni,*
*Çevürdüm tüzdüm uş nazm özre kılnı.*

Müəllif Nizaminin sənətkarlığını çox yüksək qiymətləndirərək sözə onun kimi sahib olmağın vacibliyini qeyd edir. O, yeri gəldikcə əsərin bəzi hissələrində dəyişikliklər edərək Nizaminin işlətdiyi yer adlarını və digər onomastik vahidləri buraxıb, onu yerli şəraitə uyğunlaşdırıb. Professor Əbülfəz Quliyev əsərin əvvəlində qeyd edir ki, Qütb türk milli ruhunu göstərən rəngli bir üslubla düşüncələrini ifadə etməyə səy göstərib. Bununla bağlı olaraq şair Nizami mətninə sanki bir tənqidçi gözü ilə baxıb, Nizamidə bir anlayış üçün istifadə edilmiş uzun-uzadı beytləri qısaldıb, beləcə uzun deyil, konkret anlatma formasını seçib. Həmçinin orijinaldakı atəşpərəstlərlə bağlı qismi də buraxıb, tərcümə etməyib.

Bu tərcümə haqqında əldə olan məlumatlar çox azdır. Qütb Xarəzmi burada yeri gəldikcə özü haqqında da bəzi məlumatlar verir ki, bunlar onunla bağlı yeganə mənbədir. O, taxt savaşları zamanı Teni bəyin tərəfdarları ilə birlikdə öldürülüb. "Xosrov və Şirin"in bu tərcüməsinin əldə olan Bərkə Fakih tərəfindən üzü köçürülmüş tək nüsxəsi Paris Milli Kitabxanasında saxlanılır. Bu əlyazma bir neçə dəfə müxtəlif ölkələrdə, o cümlədən Türkiyədə nəşr olunmuşdur. Lakin bu nəşrlərdə bir sıra qüsurlar özünü göstərir. Professor Əbülfəz Quliyev isə öz nəşrində həmin qüsurların aradan qaldırılmasına çalışıb.

Həm qıpçaq, həm də oğuz dillərinin xüsusiyyətlərinin əks olunduğu Qütb Xarəzminin "Xosrov və Şirin" əsərinin tərtibçisi AMEA-nın müxbir üzvü, professor Ə.Quliyevin əhatəli ön sözü ilə oxuculara təqdim olunan bu nəşrində əsərin əsas mətninin transkripsiyası verilib. Burada türk dillərinin qədim xüsusiyyətləri, onlara məxsus səs birləşmələri mühafizə olunub. Sonda isə əsərdə işlənən köhnəlmiş sözlərin lüğəti təqdim olunub. Burada arığ "təmiz", ayt "de, söylə", başlığ "başçı", çıngrağu "zınqırov", kamuğ "hamı", ıçğın "izn vermək", tanuk "şahid", tiriglik "həyat, yaşam", uluğ "böyük, ulu", yarlıka "əmr etmək, fərman vermək" kimi arxaik sözlərin geniş izahı öz əksini tapıb.

Qədim türk şeirinin inkişafında mühüm rolu olan Qütb Xarəzminin "Xosrov və Şirin" əsəri həm də XIV əsr türk dilinin mənzərəsini əks etdirir. Əsərin dilində müasir dilimizlə səsləşən məqamlar çox olduğu üçün oxucular onu anlamaqda çətinlik çəkmirlər. Buradakı bir çox dil faktları bu gün də dilimizdə və digər türk dillərində yaşamaqdadır. Bu isə dilimizin qədimliyini, zənginliyini bir daha sübut edir. Əsər geniş oxucu kütləsi üçün nəzərdə tutulsa da, burada dilçilərimiz, xüsusən dil tarixi məsələləri ilə məğşul olan mütəxəssislər üçün olduqca dəyərli məlumatlar var. Professor Əbülfəz Quliyevin böyük zəhməti hesabına oxucuya təqdim olunan bu əsər həm də türk xalqları arasında əlaqələrin inkişafına xidmət edir. İlk dəfə Azərbaycan ictimaiyyətinə, elm aləminə tanıdılan əsərin ərsəyə gəlməsində fəaliyyətinə görə Əbülfəz Quliyevə təşəkkür edir və gələcək işlərində yeni-yeni uğurlar arzu edirik.

**Nuray ƏLİYEVA**
**filologiya elmləri doktoru**
**AMEA Naxçıvan Bölməsinin**
**şöbə müdiri**

# Azərbaycanda etnoqrafiya üzrə ilk elmlər doktoru və professor

**Tarix elmləri doktoru, professor, Azərbaycanda Etnoqrafiya elminin yaradıcılarından olan alim, AMEA Tarix İnstitutunun etnoqrafiya şöbəsinin müdiri, Quliyev Həsən Aslan oğlu 1924-cü ildə Quba rayonunun Sirt Çiçi kəndində anadan olmuşdur. Orta təhsilini Quba Pedaqoji texnikumunu bitirməklə başa vuran Həsən Quliyev bir müddət Çiçi kənd orta məktəbində rus dili müəllimi işlədikdən sonra N.Nərimanov adına Dövlət Tibb İnstitutuna daxil olur.**



Başlanan Böyük Vətən müharibəsi ona təhsilini davam etdirməyə imkan vermir. Birinci kursdan müharibəyə gedir. O, Birinci Ukrayna ordusu sıralarında Şimali Qafqaz cəbhəsində alman faşizminə qarşı vuruşub. Qəhrəmanlıq nümunəsi göstərən Həsən müəllim ordu rəhbərliyi tərəfindən 18 dəfə orden və medallarla təltif olunub. Sovet ordusunun tarixi Stalinqrad (indiki Volqoqrad) qələbəsindən sonra ölkənin gələcəyini düşünən Stalin qələbəyə inandığından ziyalıları saxlamaq qərarına gəlir və hissə-hissə onları tərxis edir. Bu göstərişlə əlaqədar vətənə qayıdan Həsən Quliyev bu dəfə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinə daxil olur. Həsən Quliyev tarix fakültəsini eksterni imtahan vermək yolu ilə üç il yarıma, özü də fərqlənmə diplomu ilə bitirir. O, tələbə ikən elmi tədqiqatla məşğul olur, elmi məqalələr dərc etdirir, mühazirələr oxuyurdu. Elmə həvəs onu Moskvaya Mikluxo-Maklay adına SSRİ EA Etnoqrafiya və Antropologiya İnstitutunda aspiranturaya aparıb çıxarır. Rus dilini mükəmməl bilməsi və çalışqanlığı aspiranturanı da müvəffəqiyyətlə bitirməkdə ona kömək edir. Həsən müəllim 1953-cü ildə Moskvada "Azərbaycan kəndlilərinin məişət mədəniyyəti" mövzusunda namizədlik dissertasiyası müdafiə edir. O, Azərbaycanda etnoqrafiya sahəsində alimlik dərəcəsi alan ilk mütəxəssis olur. Azərbaycanda etnoqrafiyanın müxtəlif sahələrinin tədqiqi ilə məşğul olur. Kadr çatışmazlığı onun işini çətinləşdirir. Təşəbbüskar və əzmkar bir insan kimi kadr yetişdirmək üçün özək yaradır. O, bu özəyi Azərbaycan Tarix muzeyində təşkil etdi və gənc aspirantlar qrupu yaratdı. O Azərbaycanın rayon və kəndlərini axtarıb, etnoqrafik materiallar topladı. Mətbuatda dərc olunmuş məqalələrinin sayı-hesabı yoxdur. Həsən müəllim yorulmaq bilmədən xalqımızın adət-ənənələrini öyrənirdi.

1954-cü ildən Azərbaycan Dövlət Muzeyində Etnoqrafiya şöbəsi təşkil edərək rəhbərlik etmişdir.

1958-ci ildə Azərbaycan Elmlər Akademiyası Rəyasət Heyətinin qərarı ilə Muzeyin Etnoqrafiya şöbəsi Tarix İnstitutuna verildi. Rəhbərlik etnoqrafiya ixtisası üzrə yeganə elmi dərəcəsi olan Həsən Quliyevə həvalə edildi. Həsən müəllim qısa bir zamanda 20 nəfərdən artıq etnoqraf hazırladı. Həsən müəllim doktorluq dissertasiyası da hazırlayırdı. O, "Azərbaycan xalqının əkinçilik mədəniyyətini" tədqiq edirdi.

1969-cu ilin 28 yanvarında Gürcüstan SSR Elmlər Akademiyasının Tarix İnstitutunda Həsən müəllim "Azərbaycanda əkinçilik mədəniyyəti" mövzusunda doktorluq dissertasiyası müdafıə etdi. Daha sonra professor dərəcəsi aldı. Gürcüstan Elmlər Akademiyasının professoru A.İ.Robokidze demişdir: "H.Quliyevin "Azərbaycanda əkinçilik mədəniyyəti" mövzusunda doktorluq dissertasiyası Azərbaycan etnoqrafiyası sahəsində ilk və dəyərli yenilikdir. O, etnoqrafiya elminə yeni bir əsər gətirmişdir".

Həsən müəllim bir etnoqraf alim kimi bütün dünyada məşhur olmaqla yanaşı, Azərbaycanı da dünyada tanıtdıran şəxsiyyətlərdən biri olmuşdur. Onun əsərləri ABŞ, Almaniya, Türkiyə, Macarıstan, İsveçrə, Rusiya, (Moskva, Sankt- Peterburq, Kazan, Ufa), Ukrayna, Gürcüstan, Özbəkistan və s. yerlərdə dərc olunmuşdur. O, çox ölkələrdə elmi konfranslarda iştirak etmiş, elmi məruzələrlə çıxış etmişdir.

Etnoqrafiya şöbəsinə rəhbərlik etdiyi dövrdə 30 nəfərin elmi rəhbəri Həsən Quliyev olmuşdur. Həsən müəllim alim pedaqoq olmuşdur. BDU-da, ADPİ-da etnoqrafiyadan dərs demiş, dövlət imtahanlarında iştirak etmişdir.

Həsən Quliyev Novruz bayramının dini bayram olmadığını, İslamdan əvvəl yarandığını, Sovetlər rejiminin bu bayramı qadağan etməsinin əsassız olduğunu AKP MK katibi Şıxəli Qurbanovla birlikdə əsaslandırmış, Ulu Öndərimizə dəstək olan şəxs olmuşdur. Həsən Quliyev hərtərəfli biliyə malik insan idi. Onun şairliyi də var idi.

1968-ci ildə doktorluq dissertasiyası müdafiə edərək, elmlər doktoru adını almış, 1982-ci ildən isə professor fəxri adını daşıyan Həsən Quliyevin xidmətləri dövlətimiz tərəfindən daima yüksək qiymətləndirilmişdir. Daima yüksək vəzifədə çalışan H.Quliyev Azərbaycan etnoqrafiyasında bu elmin inkişafı yollarında fədakarcasına çalışmışdır. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 75 illiyinə həsr edilmiş "Azərbaycanlılar" monoqrafiyasının fəal müəlliflərindən biri, ömrünün 50 ilini elmə fəda edən, 200-dən artıq elmi məqalə və 15 kitab müəllifi Həsən Quliyevin rəhbərliyi ilə 30 alim namizədlik və doktorluq dissertasiyası müdafiə etmişdir. Həsən Quliyev Müstəqil Azərbaycan dövlətinin inkişafında fəal idi. 1991-ci ildə "91-lər" adı ilə məşhur olan və Heydər Əliyevin Azərbaycana gəlişini dəstəkləyən şəxslərdən idi.

Azərbaycanın böyük alimi, professor Həsən Quliyevin həyat və fəaliyyətinin hər saatı, hər anı bir kitabdır desək yanılmarıq. Quliyev Həsən Aslan oğlu 6 oktyabr 2001-ci ildə dünyasını dəyişmişdir. Bu il 77 illik ömür payının 100-cü ildönümüdür.

**Nərgiz QULIYEVA**
**A.A.Bakıxanov adına Tarix və Etnoqrafiya İnstitutunun**
**baş elmi işçisi, t.ü.e.d., professor**



# Ramazan bayramını qürur hissi ilə qeyd edirik

**Dünya müsəlmanlarının müqəddəs ayı olan Ramazan bu il xalqımız üçün xüsusilə əlamətdardır. Qurani-Kərimin ilk ayələrinin nazil olduğu bu mübarək ay özünün ali xilqətində Allaha təmənnasız ibadət, sosial ədalət və bərabərlik, bütün umu-küsülərin unudulması, imkansızlara əl tutulması kimi inanca və başəri dəyərlərə söykənir.**

İslamın beş əsas prinsipindən biri sayılan oruc bəndəni təkəbbür və şöhrətpərəstlikdən uzaqlaşdıran, birliyi, qardaşlığı təbliğ edən, onu iman və təqvaya yaxınlaşdıran ibadətdir.

Peyğəmbərimiz hədislərin birində deyir: “Oruc ibadəti insanın haramdan qorunması üçün bir imtahandır, Allahın yaratdığına bəxş etdiyi iradəni gücləndirən, səbri və dəyanəti bütünləşdirən, arzu, ehtiras və nəfsin önünə qalxan kimi sədd çəkən vasitədir”.

2024-cü ildə Ramazanı əvvəlki illərdən daha böyük qürur hissi ilə qarşılayırıq. Bu, Vətən müharibəsində qazandığımız şanlı Zəfərin sevinci, separatçı rejimin süqutundan, üçrəngli bayrağımızın otuz ildən bəri işğal altında olan torpaqlarımızda dalğalanmasından, kafir qonşularımız tərəfindən dağıdılmış və təhqir edilmiş məscidlərimizin bərpasından sonra oradan ucalan azan səsindən duyduğumuz hissdir. Bu Ramazan ayında məhz həmin qürurdan yoğrulmuş sevincimizi xeyirdualarla yad edəcəyik.

Ramazanda oruc tutub, namaz qılmaq, Quran oxumaq, iftar süfrələri açmaq, kimsəsizlərə, ahıl və qocalara əl tutmaq İlahi məqamda bəyənilən savab əməllərdəndir.

Ölkəmizdə Ramazan bayramı 10-11 aprel tarixlərində qeyd olunacaq.

# Azərbaycanda Qərb modeli əsasında müasir arxeoloji laboratoriya qurulacaq

**AMEA-nın Arxeologiya və Antropologiya İnstitutunun Eksperimental arxeoloji laboratoriyanın rəhbəri Əjdər Babazadə Azərbaycan Elm Fondunun Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Əsas qrant müsabiqəsi-2023” qrant müsabiqəsində qalib olmuş “Qarabağın daş dövrünə aid alət sənayesinin texno-tipologiyasının traseoloji ve eksperimental analizləri” adlı layihəsi çərçivəsində Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində elmi ezamiyyətdə olub.**



Layihənin məqsədi eksperimental və traseoloji araşdırmaları birgə aparmaq üçün beynəlxalq təcrübədən faydalanaraq Qərb modeli arxeologiya ekolunda (məktəbində) mikro arxeoloji, yəni mikroskopik analizlərin, eləcə də praktik arxeoloji, yəni eksperimental tədqiqatların tətbiqilə müasir arxeoloji laboratoriya qurmaqdır.

Bu məqsədlə layihənin rəhbəri Əjdər Babazadə bir neçə Avropa ölkəsi ilə bərabər traseoloji və eksperimental arxeoloji tədqiqatların ilk olaraq ortaya çıxdığı Rusiya Elmlər Akademiyasının Sankt-Peterburq şəhərində yerləşən Maddi-Mədəniyyət Tarixi İnstitutundakı Eksperimental-traseoloji laboratoriyada praktik və teorik təcrübə aparıb. Təcrübə proqramına sözügedən laboratoriyanın əməkdaşı N.Skakun rəhbərlik edib.

Təcrübə-təlim prosesi qədim əmək alətlərinin tipoloji, texnoloji və traseoloji xüsusiyyətinin və morfologiyasının tədqiqinə yönəlib. Paleo-ekonomiya və paleo-ekosistemi anlamaq üçün, əcdad Homininlərin prehistorik alət çantasındakı texno-tipoloji müxtəlifliyə və fərqliliyə əyani olaraq nəzər yetirilib.

Ezamiyyət, proqrama uyğun olaraq institutun zəngin Paleolit materialları ilə tanışlıqla başlanılıb. Daha sonra alət industriyasının texnologiyasının öyrənilməsi üçün mikroskopik analizləri və eksperimental tətbiqləri həyata keçirmək məqsədilə araşdırmalar aparılıb.

Layihə tədqiqatlarının əsas hədəfi paleolit ekonomiyasının öyrənilməsinə yönəldiyindən təcrübə proqramında eksperimental tətbiqlərə və arxeoloji materilların traseoloji analizlərinə üstünlük verilib. Arxeoloji və eksperimental materiallar üzərində mikro analizlər-traseoloji araşdırmalar üçün mikroskoplardan istifadə edilib. Bundan başqa, eksperimental tədqiqatların laboratoriya şəraitində tətbiqi metodu həyata keçirilib.

Ezamiyyət müddətində Əjdər Babazadə Rusiya Elmlər Akademiyasının Maddi-Mədəniyyət Tarixi İnstitutunun rəhbəri prof. Andrey Polyakovla da görüşüb. Görüş zamanı elmi tədqiqat işlərinin perspektivləri müzakirə edilib. AMEA Arxeologiya və Antropologiya İnstitutunda son illərdə nəşr olunan kitablar prof. Andrey Polyakova hədiyyə olunub.

Qeyd edək ki, dünyada ilk dəfə qurulan və arxeologiyada tamamilə fərqli istiqaməti - eksperimentalı və texnologiyanı birləşdirərək praktik və mikro arxeologiyanın əsası Sergey Semenov tərəfindən qoyulub. Belə ki, Paleolit və Neolit Bölməsinin alimi olan S.Semenov Eksperimental-Traseoloji Laboratoriyanı, qədim artefaktların tədqiqinin eksperimental-traseoloji metodunu 1930-1950-ci illərdə Sankt-Peterburqda apardığı tədqiqatlarla yaradıb. O, arxeologiyada ilk dəfə praktik və mikroskopik kompleks tədqiqatları toplayaraq 1957-ci ildə “Prehistoriyanın texnologiyası” (Əmək izləri əsasında qədim alət və məmulatların öyrənilməsi təcrübəsi) monoqrafiyasını nəşr etdirib. Alim o dövrün arxeologiya elmində, xüsusən Qərb arxeologiyasında yeni bir istiqamət yaratmağa nail olub, onun apardığı praktik və mikro arxeoloji araşdırmalarla uzaq və yaxın əcdadlarmızın paleo-ekonomiyası daha intensiv və ekstensiv anlaşılıb.

# Qarabağ tarixi əski çap kitablarında

**AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Elmi şurasının qərarı ilə “Qarabağ tarixi əski çap kitablarında” izahlı kataloqu nəşr olunub.**




Şuşa şəhərinin 2024-cü il üçün “İslam dünyasının mədəniyyət paytaxtı” elan edilməsi münasibətilə Əlyazmalar İnstitutunun materialları əsasında hazırlanmış bu kataloqun tərtibçisi tarix elmləri doktoru professor Tahirə Həsənzadə, redaktoru tarix üzrə fəlsəfə doktoru dosent Cavid Cəfərovdur.

Kitaba Qarabağ tarixini əks etdirən Azərbaycan, türk, rus, fars dillərində 70-dən artıq əsərin biblioqrafik təsviri və tematik tədqiqat nəticəsində Qarabağ tarixi ilə bağlı müəyyənləşdirilmiş müvafiq parçalar daxil edilib. Kataloqa professor Tahirə Həsənzadə və dosent Cavid Cəfərov geniş “Ön söz” də yazıblar.

Qeyd edək ki, yeni nəşrin elmi məsləhətçisi institutun direktoru akademik Teymur Kərimlidir.

**ELAN-MÜSABİQƏ**

## Fizika İnstitutu

**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Fizika İnstitutu aşağıdakı göstərilən vakant vəzifələri tutmaq üçün müsabiqə elan edir:**

**1.1. Yarımkeçiricilərdə və yarımkeçirici nanostrukturlarda köçürmə hadisələri laboratoriyası üzrə:**
*aparıcı elmi işçi - 5şt.*

**1.2 “Yarımkeçiricilərdə aşqarlar” laboratoriyası üzrə:**
*aparıcı elmi işçi – 3 şt.*

**1.3 Bərk cisimlərdə rezonans hadisələri laboratoriyası üzrə:**
*aparıcı elmi işçi – 3 şt.*

**1.4 Almazabənzər və çoxkomponentli birləşmələrin optik və transport xassələri laboratoriyası üzrə:**
*aparıcı elmi işçi - 7şt.*
*böyük elmi işçi - 1şt.*

**1.7 “Kosmik şüa mənbələri fizikası” laboratoriyası üzrə:**
aparıcı elmi işçi – 2 şt.

**1.8 Yüksək gərginliklər fizikası və texnikası laboratoriyası üzrə:**
*aparıcı elmi işçi – 6 şt.*
*böyük elmi işçi - 1şt.*

**1.9 “Ferromaqnit maddələrin rezonans spektroskopiyası” laboratoriyası üzrə:**
*böyük elmi işçi - 1 şt.*

**2.1 “Nanomaterialların tətbiqi texnologiyaları”**
**laboratoriyası üzrə:**
**aparıcı elmi işçi - 2 şt.**

**2.2 Bionanostrukturlar fizikası laboratoriyası üzrə:**
*aparıcı elmi işçi - 2 şt.*
*böyük elmi işçi - 1şt.*

**2.3 “Bərk cisim nəzəriyyəsi” laboratoriyası üzrə:**
*aparıcı elmi işçi - 2şt.*

**2.4 “Nanokristallar fizikası” laboratoriyası üzrə:**
*böyük elmi işçi - 1 şt.*

**2.5 Qeyri-kristallik yarımkeçiricilərin fizikası və elektronikası laboratoriyası üzrə:**
*aparıcı elmi işçi - 10şt.*

**2.6 Optoelektronika laboratoriyası üzrə:**
*aparıcı elmi işçi - 1 şt.*

**2.7 Nazik təbəqəli strukturlar laboratoriyası üzrə:**
*aparıcı elmi işçi - 2şt.*

**2.8 İnfraqırmızı fotoelektronika və plazma hadisələri laboratoriyası üzrə:**
*aparıcı elmi işçi – 4 şt.*
*böyük elmi işçi - 1 şt.*

**2.10 Spektroskopik ellipsometriya laboratoriyası üzrə:**
*aparıcı elmi işçi - 5 şt.*
*böyük elmi işçi - 2 şt.*

**2.12 Nüvə və yüksək enerjilər fizikası laboratoriyası üzrə:**
*aparıcı elmi işçi – 4 şt.*
*böyük elmi işçi - 1 şt.*

**2.13 “Dinamik sistemlərdə xaos” laboratoriyası üzrə:**
*böyük elmi işçi - 1 şt.*

**2.14 “Materialşünaslıq” laboratoriyası üzrə:**
*aparıcı elmi işçi - 2 şt.*
*böyük elmi işçi - 1 şt.*

**2.17 Kristalloqrafiya laboratoriyası üzrə:**
*aparıcı elmi işçi - 6 şt.*
*böyük elmi işçi - 2 şt.*

**3.4 “Bərk cisim elektronikası” laboratoriyası üzrə:**
*aparıcı elmi işçi - 5 şt*

**3.5 Epitaksial təbəqələr və strukturlar laboratoriyası üzrə:**
*aparıcı elmi işçi - 1şt*
*böyük elmi işçi - 1 şt*

**3.6 “Akustooptika” laboratoriyası üzrə:**
*aparıcı elmi işçi - 1 şt*
*böyük elmi işçi - 1 şt*

**3.7 “Kristallofizika” laboratoriyası üzrə:**
*aparıcı elmi işçi - 6 şt*
*böyük elmi işçi - 1 şt*

**3.9 “Nano- və aktiv kompozitlər” laboratoriyası üzrə:**
*aparıcı elmi işçi - 1şt*
*böyük elmi işçi - 1 şt*

**4.4 “Ensiklopediya və terminologiya” şöbəsi üzrə: aparıcı elmi işçi - 1şt.**

Müsabiqədə elmlər doktorları və fəlsəfə doktorları iştirak edə bilər. Sənədlər müsabiqənin müvafiq tələblərinə uyğun olaraq göndərilməlidir.

Müsabiqənin müddəti elan çap olunduğu gündən etibarən 1 aydır.

**Ünvan: Bakı, Az - 1143, H.Cavid 131,**
**Telefon: (012) 539-74-23**

**Redaksiya heyəti:**
İsa Həbibbəyli, Arif Həşimov, Dilqəm Tağıyev,
İbrahim Quliyev, Nərgiz Paşayeva, Rasim Əliquliyev,
Tofiq Nağıyev, İradə Hüseynova, Gövhər Baxşəliyeva, Cəmil Əliyev,
İsmayıl Hacıyev, Fuad Əliyev

**Baş redaktor:** Ağahüseyn Şükürov

**Ünvan:** AZ 1001, Bakı, İstiqlaliyyət küçəsi 30.
Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti
**e-mail:** elm.nauka.gazet@gmail.com

**Tiraj: 2000**

# НАУКА

Орган Президиума Национальной академии наук Азербайджана

Сила в науке...
Низами Гянджеви

ELM

Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyətinin orqanı

SCIENCE

Newspaper of the Presidium of the Azerbaijan National Academy of Sciences

№ 12 (1409) ❖ Пятница, 5 апреля 2024 года ❖ Газета выходит с 1984 года




